QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 030 (5502) 15 **fevral** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirir

*İlham Əliyev: "Bugünkü reallıqlar, bölgələrimizin çiçəklənməsi, bütün şəhərlərimizdə gedən quruculuq-abadlıq işləri göstərir ki, biz düzgün yoldayıq"*



Səh 3

**Prezident İlham Əliyev ABŞ nümayəndə heyətini qəbul edib**



2

**Mərkəzi Seçki Komissiyası YAP tərəfindən Azərbaycan prezidentliyinə namizəd İlham Əliyevin namizədliyini qeydə alıb**



4

**Birinci vitse-prezident Mehriban Əliyeva Böyük Britaniyanın Baş nazirinin ticarət elçisi ilə görüşüb**



4

**Prezidentin köməkçisi Volonte ilə bağlı məhkəmə qərarını şərh etdi**



5

**Ağsaqqallar Şurasının iclasında prezident seçkilərində İlham Əliyevin namizədliyinin dəstəklənməsi ilə bağlı müraciət qəbul olunub**



7

**Prezident İlham Əliyev məcburi köçkünlərin problemlərinin həllinə xüsusi diqqətlə yanaşır**



6

13

**Vətən xaini Orduxan Teymurxanın gizli yazışması üzə çıxdı!**



5

**"Radikallar havadarları kimi bu məsələdə çıxılmaz vəziyyətdə qalıblar"**



11

**Milan Məhkəməsi sübut etdi - əsassız iddialar öz təsdiqini tapmır!**



# Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlər bütün sahələrdə uğurla inkişaf edir

## *Prezident İlham Əliyev Böyük Britaniyanın Baş nazirinin ticarət elçisini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Böyük Britaniyanın Baş nazirinin ticarət elçisi xanım Baronessa Emma Nikolsonu qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Baronessa Emma Nikolsonun Cənub Qaz Dəhlizi Məşvərət Şurasının Bakıda keçiriləcək 4-cü iclasında iştirakına görə minnətdarlığını bildirdi.***

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, BP şirkəti ilə Azərbaycan arasında uzun illər səmərəli əməkdaşlığın həyata keçirildiyi qeyd edildi.

Söhbət zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə verdiyi töhfənin, "Cənub Qaz Dəhlizi" layihəsinin önəmi vurğulandı, layihə ilə bağlı Məşvərət Şurasının Bakıda keçiriləcək 4-cü iclasının əhəmiyyəti qeyd edildi.



# Prezident İlham Əliyev ABŞ nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də ABŞ Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunun beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi vəzifəsini icra edən xanım Syu Saarnionun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Cənub Qaz Dəhlizi Məşvərət Şurasının Bakıda keçiriləcək 4-cü iclasında iştirakına görə Syu Saarnioya minnətdarlığını bildirərək, ABŞ-ın bu tədbirdə yüksək səviyyədə təmsil olunmasının layihənin icrası baxımından önəmini vurğuladı. Prezident İlham Əliyev "Cənub Qaz Dəhlizi" layihəsinin həyata keçirilməsində ABŞ hökumətinin verdiyi dəstəyi yüksək qiymətləndirdi. Dövlətimizin başçısı bu layihənin yaxın zamanlarda reallaşacağından məmnunluğunu ifadə edərək Məşvərət Şurasının sabah keçiriləcək iclasının görülən işlər və qarşıda duran planların müzakirəsi üçün yaxşı imkan yaratdığını vurğuladı. Layihə üzrə işlərin cədvələ uyğun getdiyini deyən dövlətimizin başçısı bütün bunları layihəyə cəlb olunmuş ölkələrin hökumətlərinin, şirkətlərinin, maliyyə institutlarının birgə səylərinin nəticəsi kimi dəyərləndirdi. ABŞ Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunun beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi vəzifəsini icra edən Syu Saarnio Azərbaycana səfərindən böyük məmnunluq hissi keçirdiyini vurğuladı. O, ABŞ Prezidentinin, Dövlət katibinin, ABŞ hökumətinin "Cənub Qaz Dəhlizi" layihəsinə dəstək verdiyini vurğuladı və bu layihənin başa çatmaqda olmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev ötən il Bakıda keçirilən Beynəlxalq "Xəzər Neft və Qaz-2017" sərgisinə ABŞ Prezidentinin təbrik məktubu göndərməsini məmnunluqla xatırlayaraq Birləşmiş Ştatların yeni administrasiyasının bu layihəyə dəstəyini yüksək qiymətləndirdi.

### *Rəsmi xronika*

Prezident İlham Əliyev fevralın 14-də "Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi üçün əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

# Azərbaycan beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirir

## *İlham Əliyev: "Bugünkü reallıqlar, bölgələrimizin çiçəklənməsi, bütün şəhərlərimizdə gedən quruculuq-abadlıq işləri göstərir ki, biz düzgün yoldayıq"*



***Davamlı və dinamik inkişafı, spesifik milli inkişaf modeli ilə tanınan Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi, informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi və beynəlxalq kosmik məkana inteqrasiya istiqamətində böyük nailiyyətlər əldə edib. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmiz getdikcə daha da yeniləşir, iqtisadi islahatları reallaşdıran və innovativ inkişafa yol açan dövlətə çevrilir. Dünya İqtisadi Forumunun Qlobal Rəqabətqabiliyyətlilik İndeksinə əsasən, Azərbaycanın öz mövqeyini möhkəmləndirərək, 37-ci yerdən 35-ci yerə yüksəlməsi və bu göstəriciyə görə bir sıra inkişaf etmiş ölkələri üstələyərək, MDB məkanında şəriksiz liderə çevrilməsi inkişafımızın daha bir göstəricisidir.***

Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyası Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsinin nəticəsində, ölkəmizin qeyri-neft sənayesi də dinamik inkişaf edir, qabaqcıl texnologiyalara əsaslanan yeni istehsal və emal müəssisələri yaradılır. Hazırda bu istiqamətdə aparılan işlər ölkənin bütün regionlarında uğurla davam etdirilir. Ölkənin iqtisadi inkişafının baza sütunlarından biri olan regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası bütün mövcud problemləri, insanları narahat edən sosial məsələləri əhatə edərək, ölkəmizin dinamik inkişafını təmin etməklə yanaşı, bölgələrin potensialının artmasına və əhalinin rifahının yüksəlməsinə geniş şərait yaradıb.

Dövlət proqramlarının icrası istiqamətində görülən işlər nəticəsində, ölkənin hər yerində genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilib, ölkənin siması tamamilə dəyişib, Cənab İlham Əliyevin vurğuladığı kimi əsas məqsədimiz Azərbaycanın inkişafını daha da sürətləndirməkdir, dayanıqlı, uzunmüddətli inkişafa nail olmaqdır və biz buna nail ola bilmişik: "Bugünkü reallıqlar, bölgələrimizin çiçəklənməsi, bütün şəhərlərimizdə gedən quruculuq-abadlıq işləri göstərir ki, biz düzgün yoldayıq".

Bütün bunlar ölkədə yaradılmış siyasi sabitliklə yanaşı, iqtisadiyyatın şaxələndirilməsi, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafı, eləcə də, mövcud çağırışların tələblərinə uyğun çevik iqtisadi islahat tədbirləri sayəsində mümkün olub. Son on dörd il ərzində iqtisadi göstəricilər ümumi inkişafın uğurlu dinamikasını əyani şəkildə göstərir. "İqtisadiyyat 14 il ərzində 3,2 dəfə artmışdır"- deyən Cənab Prezident qeyri-neft iqtisadiyyatımızın 2,8 dəfə artdığını qeyd edib: "Bu, onu göstərir ki, bizim iqtisadi inkişafımız, sadəcə olaraq, neftin və qazın istehsalı ilə bağlı deyil. Bizim iqtisadi inkişafımız çoxşaxəlidir. Ona görə qeyri-neft sektorunun 2,8 dəfə artması aparılan islahatların nəticəsidir. Sənaye sahəsində 2,6 dəfə artım var, kənd təsərrüfatında 1,7 dəfə. Qeyri-neft ixracımız 4,1 dəfə artmışdır".

### "BİZ CİDDİ İSLAHATLAR HƏYATA KEÇİRMƏYƏ BAŞLADIQ VƏ ONLAR ARTIQ YAXŞI NƏTİCƏ VERİR"

Qeyri-neft sektorunun dinamik inkişafı və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər kənd təsərrüfatı sahələrinin inkişafında da mühüm nəticələrin əldə olunmasına gətirib çıxarıb. Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində mühüm işlər görülür. Azərbaycan Prezidentinin sərəncamları ilə, ölkənin sosial-mədəni və iqtisadi sahələrində olduğu kimi, kənd təsərrüfatının inkişafına dair qəbul olunmuş dövlət proqramları, müvafiq qanunvericilik aktları ölkə ərazisində olan torpaq ehtiyatlarında səmərəli şəkildə istifadə üçün geniş imkanlar açıb. "Biz ciddi islahatlar həyata keçirməyə başladıq və onlar artıq yaxşı nəticə verir. Ötən il iqtisadiyyatımızın qeyri-neft sektoru təqribən 3 faiz və qeyri-neft sənayemiz 4 faiz artmışdır", - deyən Azərbaycan Prezidenti artıq şaxələndirmə prosesinin başlandığını və bizim bu prosesi səngitmək niyyətimiz olmadığını diqqətə çatdırıb.

### "MALİYYƏ VƏZİYYƏTİMİZ ÇOX SABİTDİR, MÜSBƏTDİR"

Bu gün ölkəmizdə pambıqçılıq, tütünçülük, çayçılıq və s. inkişafın yeni bir dövrünü yaşayır. Ölkə başçısının kənd təsərrüfatının ayrı-ayrı sahələrin inkişafı ilə bağlı imzaladığı məlum sərəncamları bu sahələrdə artıq göstəricilərin yüksək səviyyədə olduğunu ifadə edir. Pambıqçılığın inkişafı rekord templərlə gedir. Cənab Prezident "2015-ci il ilə 2017-ci ili müqayisə etsək, görərik ki, 2015-ci ildə 35 min ton, 2017-ci ildə isə 207 min ton pambıq tədarük edilib" - deyərək, pambıqçılıqla məşğul olan zəhmətkeşlərin sayının da 200 minə çatdığını bildirib. Bu isə, məşğulluq deməkdir: "Hər gün bu insanlar halal zəhmətlə pul qazanıb, evlərinə aparırlar. Ona görə mən bir daha demək istəyirəm ki, pambıqçılığın inkişafının çox böyük sosial tutumu var. Əlbəttə, bu, ixrac üçün də çox gəlirli bir sahədir. Bu il də biz pambıqçılıqla çox ciddi məşğul olmalıyıq".

Bir çox kənd təsərrüfatı sahələri kimi, Azərbaycanda baramaçılıq da sürətlə inkişaf edir. Əgər 2015-ci ildə 236 kiloqram barama tədarük olunmuşdusa, 2016-cı ildə bu rəqəm 244 ton olub. Bu sahənin inkişafı üçün Şəki İpək Kombinatı daha böyük güclə işləyəcək ki, bu da yaxın illərdə böyük göstəricilərin əldə olunması ilə nəticələnəcəkdir. Demək olar ki, bütün sahələrdə inkişaf nəzərəçarpacaq dərəcədədir. Fındıqçılıq sürətlə inkişaf edir və 2016-2017-ci illərdə 30 minə yaxın hektarda yeni fındıq bağları salınıb. Tütünçülükdə isə 2016-cı ildə 3 min 500 ton, 2017-ci ildə isə 5 min 200 ton quru tütün tədarük edilibdir. Bütün bu və ya digər amillər Azərbaycan iqtisadiyyatının yaxın zamanda daha da artacağından xəbər verir.

Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirməsi, beynəlxalq qurumların hesabatlarında islahatçı ölkə kimi yer tutması, dünyanın nüfuzlu təşkilatlarının Azərbaycanın mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etməsi ölkəmizin seçdiyi yolun düzgün olduğunu təsdiqləyir. "Maliyyə vəziyyətimiz çox sabitdir, müsbətdir" - deyən Cənab İlham Əliyev Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı və beynəlxalq reytinq agentliklərinin bizdə aparılan islahatları yüksək qiymətləndirdiklərini bildirib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Birinci vitse-prezident Mehriban Əliyeva Böyük Britaniyanın Baş nazirinin ticarət elçisi ilə görüşüb



Birinci vitse-prezident Mehriban Əliyeva Baronessa Emma Nikolsonu Azərbaycanda salamlayaraq, qonağın ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi. Böyük Britaniyanın Baş nazirinin ticarət elçisinin fevralın 15-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasında iştirak edəcəyini qeyd edən Mehriban Əliyeva bu iclasın uğurlu keçəcəyinə əminliyini bildirdi. Baronessa Emma Nikolsonla 2016-cı ilin noyabrında görüşünü xatırlayan Birinci vitse-prezident onun geniş fəaliyyətini yüksək dəyərləndirdi və böyük hörmətə layiq olduğunu vurğuladı. "Ölkələrimiz arasında əməkdaşlıq genişləndirilir və gücləndirilir", - deyən Birinci vitse-prezident Mehriban Əliyeva bu işdə Baronessa Emma Nikolsonun rolunu xüsusi qeyd etdi. Mehriban Əliyeva Azərbaycanla Böyük Britaniya arasında uzun illər mövcud olan işgüzar əlaqələrin bir çox sahələri əhatə etdiyini diqqətə çatdıraraq, enerji sektorundakı əməkdaşlığı xüsusi vurğuladı, Azərbaycanda Böyük Britaniyanın bir sıra şirkətlərinin, o cümlədən BP şirkətinin uğurlu fəaliyyətini qeyd etdi. Ümumi dəyəri 42 milyard dollar olan "Cənub Qaz Dəhlizi" layihəsinin Azərbaycan üçün əhəmiyyətini vurğulayan Mehriban Əliyeva bu layihənin uğurla həyata keçirildiyini və BP şirkətinin layihənin əsas tərəfdaşlarından biri olduğunu dedi. Diqqətə çatdırdı ki, layihənin reallaşdırılması ilə ilk qazın bu ilin iyulunda Türkiyəyə, 2020-ci ildə isə Avropaya çatdırılması nəzərdə tutulur.

İki ölkə arasında digər sahələrdə də geniş əməkdaşlıq imkanlarının mövcudluğunu qeyd edən Birinci vitse-prezident nəqliyyat, yüksək texnologiyalar, səhiyyə, kənd təsərrüfatı sahələrində böyük potensialın olduğunu vurğuladı. Baronessa Emma Nikolsonun xeyriyyəçilik fəaliyyətindən danışan Mehriban Əliyeva AMAR Beynəlxalq Xeyriyyə Fondu ilə Heydər Əliyev Fondu arasında çox uğurlu əməkdaşlığı qeyd etdi. Bildirdi ki, İraqda münaqişədən əziyyət çəkən insanlar üçün 2017-ci ildə Baronessa Emma Nikolsonun təklifi ilə köçkün düşərgələrində şahmat turniri keçirilib. Azərbaycanın iki beynəlxalq şahmatçısı Azər Mirzəyev və Fərid Abbasov turnirdə iştirak edərək, oyunlar keçiriblər. Bu layihəyə göstərilən dəstəyə görə Baronessa Emma Nikolsona minnətdarlığını bildirən Mehriban Əliyeva Azərbaycan tərəfinin gələcəkdə də belə layihələrdə iştirak etməyə hazır olduğunu dedi.



*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva fevralın 14-də Böyük Britaniyanın Baş nazirinin ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşüb.*

AZƏRTAC xəbər verir ki, Böyük Britaniyanın Baş nazirinin ticarət elçisi Baronessa Emma Nikolson Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya xatirə hədiyyəsi təqdim etdi.

Böyük Britaniyanın Baş nazirinin ticarət elçisi Baronessa Emma Nikolson ölkəmizdə olmaqdan məmnunluğunu bildirdi. Qonaq Mehriban Əliyeva ilə ikinci dəfədir ki, görüşdüyünü qeyd edərək, keçirilən müzakirələri yüksək dəyərləndirdi. Vurğuladı ki, müzakirələrin nəticəsi olaraq hər iki tərəf üçün böyük maraq doğuran sahələrdə uğurlu işlər görülüb. Qonaq bu fəaliyyətin davam etdirilməsini arzuladıqlarını bildirdi.

## "Azərbaycan Gürcüstan iqtisadiyyatına ən çox investisiya yatıran ölkədir"

Azərbaycan Gürcüstan iqtisadiyyatına sərmayə yatıran ölkələr sırasında birinci yerdədir. AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Georgi Çerkezeşvili Avronest Parlament Assambleyasının Tbilisidə keçirilən iqtisadiyyat komitəsinin iclasında söyləyib. O bildirib ki, Gürcüstan iqtisadiyyatına sərmayə yatıran ölkələr sırasında ikinci yerdə Türkiyədir. Nazir müavini çıxışı zamanı ölkəsinin investisiya və iqtisadi imkanları barədə iclas iştirakçılarına məlumat verib.

# Mərkəzi Seçki Komissiyası YAP tərəfindən Azərbaycan prezidentliyinə namizəd İlham Əliyevin namizədliyini qeydə alıb



Fevralın 14-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə MSK katibi Arifə Muxtarova Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyinin təsdiq olunmasına dair məsələ barədə məlumat verib. Qeyd edib ki, namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2018-ci il fevralın 9-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edilib. Komissiya qərara alıb ki, 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən İlham Heydər oğlu Əliyevin namizədliyi təsdiq edilsin.

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib



***Fevralın 14-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib. Əvvəlcə MSK katibi Arifə Muxtarova Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyinin təsdiq olunmasına dair məsələ barədə məlumat verib. Qeyd edib ki, namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2018-ci il fevralın 9-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edilib.***

Komissiya qərara alıb ki, 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası prezidentinin seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən İlham Heydər oğlu Əliyevin namizədliyi təsdiq edilsin.

Sonra namizədliyi irəli sürülmüş daha dörd nəfərin namizədliyi qeydə alınıb.

Daha sonra Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin qeydəalınması barədə məsələyə baxılıb. Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini Əli Əhmədov və həmin partiyanın icra katibinin müavini Mübariz Qurbanlı səlahiyyətli nümayəndələr, icra katibinin müavini, deputat Siyavuş Novruzov isə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə kimi qeydə alınıblar. Namizədliyi qeydə alınmış digər dörd namizədin də səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsi də müzakirə olunub. İclasda cari məsələlərə də baxılıb.

## Prezidentin köməkçisi Volonte ilə bağlı məhkəmə qərarını şərh etdi

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Azərbaycanla korrupsiya əlaqələrində ittiham olunan AŞPA-da Avropa Xalq Partiyası deputatlar qrupunun sədri olmuş Luka Volonte barədə İtaliyanın Milan məhkəməsinin bəraət qərarını şərh edib.



Əli Həsənov bildirib ki, Milan məhkəməsinin 2018-ci il 13 fevral tarixli qərarı ötən ilin ortalarında məlum anti-Azərbaycan mərkəzlərin və şəbəkələrin sifarişi ilə Mütəşəkkil Cinayətkarlıq və Korrupsiyaya Qarşı Jurnalistika Layihəsi (OCCRP) adlı qeyri-şəffaf və bəlli məqsədlər üçün yaradılmış qurum vasitəsilə yayılmış məlumatların əsassız, qərəzli olduğunu və Azərbaycanın sağlam beynəlxalq imicini ləkələmək məqsədi güddüyünü təsdiqlədi.

"Qeyd edim ki, anti-Azərbaycan mərkəzlər və şəbəkələr bu kimi çoxsaylı feyk-məlumatlarla həm Azərbaycan dövlətini, həm də ölkəmizə dost münasibəti bəsləyən, onunla bağlı müsbət fikirlər bildirən tanınmış şəxsləri - ictimai-siyasi xadimləri, ekspertləri, jurnalistləri və s. hədəfə götürmək və qınaq obyektinə çevirmək istəyirdilər. Təsadüfi deyil ki, həmin vaxt OCCRP-nin "Azərbaycanın pulyuyan maşını" adlı qondarma materialı dünya mediasında sürətlə tirajlandı, məsələ ilə ayrı-ayrı ölkələrin rəsmi instansiyaları maraqlandı və orada adları keçən şəxslər, o cümlədən də guya Azərbaycandan 2 milyon 640 min dollar almış AŞPA-da Avropa Xalq Partiyası deputatlar qrupunun sədri olmuş Luka Volonte barədə xüsusi araşdırma başladıldı".

Ə.Həsənov xatırladıb ki, həmin dövrdə biz açıqlama yayaraq OCCRP -nin imzası ilə dövriyyəyə buraxılmış bu iddiaların qərəzli, əsassız, təxribat xarakteri daşıdığını və Azərbaycana qarşı bəlli dairələr tərəfindən təşkil edilmiş çirkin qarayaxma kampaniyasının tərkib hissəsi olduğunu bildirmişdik. Göründüyü kimi, Milan məhkəməsinin obyektiv araşdırması da bunu bilavasitə təsdiqlədi.

Prezidentin köməkçisi deyib ki, Azərbaycan hakimiyyəti dövlətin və onun tərəfdaşlarının imicini ləkələmək məqsədilə həyata keçirilən belə qarayaxma kampaniyasının təşkilatçıları və icraçıları haqqında kifayət qədər məlumatlıdır və yalnız Milan məhkəməsinin qərarı ilə kifayətlənmək niyyətində deyil. Biz bu çirkin əməldə əli olanlarla bağlı müvafiq qaydada hüquqi prosedurlara başlamaq niyyətindəyik. Məsələ ilə bağlı artıq Azərbaycanın aidiyyəti dövlət orqanlarına tapşırıqlar verilib. Hesab edirik ki, demokratiya və söz azadlığı pərdəsi altında gizlənərək beynəlxalq miqyasda ayrı-ayrı dövlətlərə, qurumlara, şəxslərə qarşı kampaniya təşkil edənlər bunun məsuliyyətini də dərk etməli və cavabdehlik daşımalıdırlar.

## Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirir

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) qarşısına qoyulan vəzifələr layiqincə yerinə yetirilir. AZƏRTAC xəbər verir ki, bunu fevralın 13-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov jurnalistlərə müsahibəsində deyib. A.Rəhimov bildirib ki, qarşıya qoyulan tapşırıqlar bundan sonra da yüksək səviyyədə icra olunacaq. Xidmətin əsas vəzifələrindən biri səfərbərlik işinin təşkilidir. Qurum yarandığı gündən Silahlı Qüvvələrin digər strukturları ilə birlikdə bu istiqamətdə mühüm işlər görür.



## Azərbaycan QHT-lərinin üzvləri Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunan nailiyyətləri yüksək qiymətləndirirlər

Fevralın 14-də Bakıda qeyri-hökumət təşkilatlarının ümumrespublika konfransı keçirilib. AZƏRTAC xəbər verir ki, konfransı açan Azərbaycan Milli QHT Forumunun prezidenti Rauf Zeyni Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə görülən işlərdən, əldə edilən nailiyyətlərdən danışıb. O qeyd edib ki, dövlətimizin başçısının uğurlu siyasəti nəticəsində beynəlxalq arenada nüfuzu artan Azərbaycan söz sahibinə çevrilib. Bu gün regionda Azərbaycanın iştirakı olmadan heç bir layihə həyata keçirilmir. Bu da Azərbaycanın beynəlxalq miqyasda etibarlı tərəfdaşa çevrilməsindən xəbər verir.



Bildirilib ki, Prezident İlham Əliyevin siyasətinin mərkəzində əsas yeri əhalinin sosial rifahının yaxşılaşdırılması, vətəndaş cəmiyyətinin inkişafı tutur. Vətəndaş cəmiyyətinin üzvləri Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunan nailiyyətləri yüksək qiymətləndirirlər və bundan sonra da respublikamızın inkişafı istiqamətində atılacaq hər addımda dövlətimizin başçısını dəstəkləyəcəklər. İctimai Problemlərin Tədqiqi Assosiasiyasının sədri Məhərrəm Zülfüqarlı Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı istiqamətində həyata keçirilən islahatlardan danışıb. O bildirib ki, Azərbaycanda demokratik və şəffaf seçkilərin keçirilməsi üçün son illər xeyli işlər görülüb.

Xan Şuşinski Fondunun sədri Bəyimxanım Verdiyeva Prezident İlham Əliyevin ölkəmizdə mədəniyyətin və incəsənətin inkişafına göstərdiyi diqqət və qayğıdan danışıb. O vurğulayıb ki, məhz bunun nəticəsində bu gün Azərbaycan incəsənəti özünün intibah dövrünü yaşayır. Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsinin sədri Azər Həsrət deyib ki, bu gün Azərbaycan regionda sürətli inkişafı və sabitliyi ilə seçilən bir dövlətdir. Azərbaycan kiçik ölkə olmasına baxmayaraq, bir çox dövlətlərə nümunə göstərilir. Bir ölkənin bu səviyyəyə gəlib çatması onun liderinin doğru seçilməsindən, həmin liderin verdiyi vədlərə sadiq qalmasından, xalq qarşısında məsuliyyəti dərk etməsindən asılıdır. Azərbaycanın bugünkü inkişafı və sabitliyi Prezident İlham Əliyevin xidmətlərinin nəticəsidir.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu qeyd edib ki, ölkəmizdəki nailiyyətlərin daha da artması üçün hər birimiz Prezident İlham Əliyevin ətrafında sıx birləşməliyik. İnanırıq ki, işğal altında olan torpaqlarımız tezliklə Prezident İlham Əliyevin rəhbərliyi ilə azad olunacaq və məcburi köçkünlər öz doğma yurdlarına qayıdacaqlar. Biz Azərbaycanın sürətli inkişafına, sabitliyinə və parlaq gələcəyinə səs verməliyik.

Konfransda çıxış edən müxtəlif qeyri-hökumət təşkilatlarının rəhbərləri aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkilərində İlham Əliyevin namizədliyini dəstəkləyəcəklərini vurğulayıblar. Sonda Azərbaycan qeyri-hökumət təşkilatlarının ümumrespublika konfransı nümayəndələrinin prezident seçkiləri ilə bağlı müraciəti qəbul edilib.

Müraciətdə bildirilir ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya 2003-cü ildən Prezident İlham Əliyev tərəfindən böyük uğurla həyata keçirilir. Aparılan uğurlu siyasət nəticəsində bu gün ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində dinamik inkişaf müşahidə edilir. Bu inkişafın əsasında, ilk növbədə, sabitlik dayanır. Son illərdə dünyanın müxtəlif yerlərində baş verən qanlı toqquşmalar, vətəndaş müharibələri, xarici hərbi müdaxilələr bir daha göstərir ki, sabit ictimai vəziyyət hər bir dövlət üçün ən qiymətli amildir. Ölkəmizdə sabitliyin qorunması xalq-iqtidar birliyinin əsas təzahür formalarından biridir. Bu siyasətin mərkəzində isə ölkə vətəndaşları, onun problemləri, qayğıları və rifahı dayanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs özündə xalqın, dövlətin mənafeyinə cavab verən ən ali prinsipləri və normaları ehtiva edir.

Müraciətdə qeyd edilir ki, bu gün Azərbaycan demokratik dövlət olaraq dünyanın inkişaf etmiş ölkələri arasında xüsusi yer tutur. Ölkəmizdə bütün azadlıqların - söz, mətbuat, sərbəst toplaşma, insan və vətəndaş hüquq və azadlıqlarının ən yüksək səviyyədə təmin edilməsi, həmçinin vətəndaş cəmiyyəti institutlarının inkişafı üçün yaradılmış münbit şərait Azərbaycanın daha böyük sürətlə inkişaf edəcəyini göstərir.

Bu gün dünyaya müasir multikulturalizm modelini təqdim edən Azərbaycan beynəlxalq aləmdə multikultural ideyaları təbliğ edən nümunəvi ölkə kimi tanınır. Aparılan uğurlu siyasət söylənməyə əsas verir ki, bundan sonra da ölkəmizdə bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayacaqlar. Uğurlu siyasətin nəticəsi olan bütün bunlar ölkəmizin inkişafına böyük töhfədir. "Ümumrespublika konfransının nümayəndələri Azərbaycan vətəndaşlarını aprelin 11-də keçiriləcək prezident seçkilərində fəal iştirak etməyə, ölkəmizin işıqlı sabahı, xalqımızın gələcək rifahı naminə İlham Əliyevə səs verməyə çağırırlar", - deyə müraciətdə qeyd edilir.

## Aydın Mirzəzadə: "Radikallar havadarları kimi bu məsələdə çıxılmaz vəziyyətdə qalıblar"

*"Azərbaycana qarşı qarayaxma məqsədli surətdə edilmişdi. Azərbaycanın artan nüfuzu, Azərbaycanın beynəlxalq birlikdə siyasi çəkisi müəyyən anti-Azərbaycan dairələri narahat edirdi və bunun perspektivi olmadığı açıq-aydın görünürdü".*

Bunu "Səs" qəzetinə açıqlamasında Aydın Mirzəzadə Milan Məhkəməsinin Azərbaycanla siyasi korrupsiyada ittiham olunan İtaliyanın AŞPA-dakı nümayəndə heyətinin üzvü, deputat Luka Volonteyə bəraət verilməsinə münasibət bildirərkən qeyd edib. A.Mirzəzdənin sözlərinə görə, hesab edirdilər ki, Azərbaycan sadəcə olaraq, buna əhəmiyyət verməyəcək və onlar yalanlarını uzadacaq: "Ancaq indi nüfuzlu bir məhkəmənin Azərbaycanın günahsızlığını təsdiqləməsi həmin dairələr üçün çox ciddi zərbə oldu. Bu, eyni zamanda, erməni diaspor təşkilatları üçün də növbəti zərbə oldu. Maraqlı budur ki, Azərbaycanda fəaliyyət göstərən radikal müxalifət nədənsə, o ittihamları tirajlayırdı, indi isə məhkəmə qərarı barəsində, sadəcə, susur. Çünki radikallar, havadarları kimi, bu məsələdə çıxılmaz vəziyyətdə qalıblar".



**İNAM**

# Prezident İlham Əliyev məcburi köçkünlərin problemlərinin həllinə xüsusi diqqətlə yanaşır

***Fevralın 14-də Bakıda “Məcburi köçkün icmaları İlham Əliyevin prezidentliyə namizədliyini dəstəkləyir” adlı tədbir keçirilib.***

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun direktoru Sabir Əhmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi nailiyyətlərdən danışıb. Bildirib ki, bu gün Azərbaycan dünyada bütün sahələrdə sürətlə inkişaf edən dövlət kimi tanınır, ölkəmizin hərbi qüdrəti artır, ordumuz güclənir. Azərbaycan xalqının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışan S.Əhmədov deyib: “Azərbaycan Prezidenti İlham Əliyev məcburi köçkünlərin problemlərinin həllini daim diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısı qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllini dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Məhz buna görə də prezident seçkilərində məcburi köçkünlərin dövlətimizin başçısını dəstəkləməsi təbiidir”.



Tədbirdə çıxış edən Ağdam rayonundan gənc məcburi köçkün Alim Rzayev, Zəngilan rayonundan məcburi köçkün Nailə Həsənova, Qubadlı rayonundan məcburi köçkün Savalan İmanov, İcma İnkişaf Mərkəzinin icraçı direktoru Yasin Dadaşov, məcburi köçkün icmaları ilə işləyən tərəfdaş təşkilatın nümayəndəsi Mirsaleh Məmmədov və başqaları ölkəmizdə məcburi köçkünlərin əhatə olunduqları dövlət qayğısından bəhs ediblər. Bildirilib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma torpaqlarından didərgin düşmüş insanlar qəzalı vəziyyətdə olan binalarda, çadır şəhərciklərində, fin evlərində, yataqxanalarda ağır şəraitdə yaşayırdılar. Ancaq əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasət nəticəsində məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində böyük işlər görüldü. Məcburi köçkünlər üçün yeni qəsəbələr, şəhərciklər salındı, onların digər sosial problemlərinin həlli ilə bağlı ciddi addımlar atıldı. Ümumilikdə qaçqın və məcburi köçkünlər üçün indiyədək 97 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri inşa edilib ki, bu da 265 min nəfər qaçqın və məcburi köçkünün mənzil-məişət şəraitinin yaxşılaşdırılması deməkdir. Bu isə Azərbaycan Prezidentinin məcburi köçkünlərin problemlərinin həllinə göstərdiyi diqqətin təzahürüdür. Sevindirici haldır ki, ölkəmizdə qaçqın və məcburi köçkünlərə göstərilən bu diqqət və qayğı bütün beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir və bu təcrübədən istifadə olunur. Birinci vitse-prezident Mehriban Əliyevanın da hər zaman məcburi köçkünlərin problemlərinin həllinə həssaslıqla yanaşdığı qeyd edilib. Bildirilib ki, təkcə ötən il Mehriban Əliyevanın rəhbərliyi ilə 1000-ə yaxın məcburi köçkün ailəsi qəzalı binalardan yeni mənzillərə köçürülüb.



Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz doğma torpaqlarına qayıdacaqlarına əminliklərini bildirən məcburi köçkünlər Cocuq Mərcanlıdan başlayan və Ağdərədə gedən Böyük qayıdış prosesinin işğal altında olan digər torpaqlarımızı da tezliklə əhatə edəcəyinə inandıqlarını vurğulayıblar. Çıxış edənlər bütün məcburi köçkünlərin hər zaman dövlətimizin başçısının yanında olduqlarını, onu dəstəklədiklərini bir daha bəyan ediblər. Bildirilib ki, məcburi köçkünlər aprelin 11-də keçiriləcək prezident seçkilərində fəal iştirak edərək dövlətimizin başçısına səs verəcəklər. Sonra məcburi köçkün icma nümayəndələrinin bəyanatı qəbul edilib.

Bəyanatda bildirilir ki, Yeni Azərbaycan Partiyasının fevralın 8-də keçirilmiş VI qurultayında Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi barədə yekdilliklə qəbul edilən tarixi qərar ölkənin hər bir vətəndaşı, hər bir azərbaycanlı, hər bir qaçqın və məcburi köçkün tərəfindən rəğbətlə qarşılanıb, geniş ümumxalq dəstəyi qazanıb. Artıq 20 ildən çoxdur ki, 1 milyondan artıq azərbaycanlı Ermənistanın hərbi təcavüzü və işğalından əziyyət çəkir. Soydaşlarımızın üzləşdiyi problemlər Azərbaycan dövlətinin daim diqqət mərkəzindədir. Müstəqilliyimizin ilk illərindən bu istiqamətdə həyata keçirilən tədbirlər, atılan addımlar dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Öz doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın yaşayış şəraitinin yaxşılaşdırılması, işlə, təhsillə, tibbi və digər xidmətlərlə təmin edilməsi üçün 2004-cü ildə Dövlət Proqramı qəbul olunub, 2007-ci və 2011-ci illərdə bu proqrama əlavələr təsdiqlənib. Ümumiyyətlə, bu istiqamətdə həyata keçirilən tədbirlərin icrası üçün 6 milyard manatdan çox vəsait ayrılıb.

Qeyd edilir ki, dövlətimizin başçısı tərəfindən bu sahə ilə bağlı 98 fərman və sərəncam imzalanıb. Milli Məclis 34 qanun, Nazirlər Kabineti isə 370 qərar və sərəncam qəbul edib. 2007-ci ildə məcburi köçkünlərin olduqca ağır şəraitdə yaşadıqları 12 çadır və 3 dəmir yolu üzərindəki yük vaqonlarından ibarət düşərgə, 2016-cı ildə isə fin tipli evlərdən ibarət 16 qəsəbədən sonuncusu ləğv olunub və orada müvəqqəti məskunlaşmış məcburi köçkün ailələr yeni salınmış qəsəbələrə köçürülüb. Qaçqın və məcburi köçkünlər üçün indiyədək ümumilikdə 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan 97 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. Konkret desək, 152 məktəb, 58 mədəniyyət, 59 səhiyyə müəssisəsi, 60 uşaq bağçası, 2 Olimpiya İdman Kompleksi tikilib, 730 kilometr yol, 965 kilometr su, 1625 kilometr elektrik, 465 kilometr qaz xətləri çəkilib. Məcburi köçkünlər üçün ən böyük təhsil ocağı - 1300 şagird yerlik məktəb 2012-ci ildə Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində, gücünə görə (280 meqavat) ən böyük elektrik yarımstansiyası 2007-ci ildə Ağcabədi rayonunda istifadəyə verilib.

İndiyədək 53 min ailə və ya 265 min nəfər qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb ki, bundan 49 min ailə, yaxud 245 min nəfər son 14 ilin payına düşür.

Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün son 24 ildə 6,6 milyard manat vəsait sərf olunub. Ondan 3,1 milyard manatı dövlət büdcəsinin, 2,1 milyard manatı Dövlət Neft Fondunun, 1,4 milyard manatı isə beynəlxalq maliyyə qurumlarının və ölkəmizdə fəaliyyət göstərən beynəlxalq humanitar təşkilatların vəsaitidir.

Son 14 ildə məcburi köçkünlərə aylıq yemək xərci üçün verilən müavinətin məbləği 4 dəfə, kommunal xidmətlərə görə vəsaitin miqdarı 4,5 dəfə artırılıb. Həmin müddətdə 400 mindən çox qaçqın və məcburi köçkün yeni iş yeri ilə təmin olunub. Hər bir qəsəbədə məktəblər, uşaq bağçaları salınıb. Ali və orta ixtisas təhsili ocaqlarında ödənişli formada təhsil alan qaçqın və məcburi köçkünlər təhsil haqqı ödəməkdən azad olunublar. Bu gün də dövlət tərəfindən həyata keçirilən bir sıra proqramlar, özünüməşğulluq, regionlarda ictimai işlərə aid yerlərin açılması məhz bu məqsədə, əhalimizin bu təbəqəsinin sosial problemlərinin həllinə yönəldilib və bir çox sosial problemlər öz həllini tapmaqdadır. Ümumiyyətlə, Azərbaycan dövlətinin bu sahədə təcrübəsi - həm çadır şəhərciklərinin ləğvi, həm də demək olar ki, humanitar fəlakətin qarşısının alınması çox nadir bir təcrübədir. Bu təcrübə nümunə olaraq bütün beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir və istifadə olunur.

2016-cı ilin aprel döyüşlərindən sonra Lələtəpə, Talış yüksəkliyi düşmən işğalından azad edildi. Lələtəpə yüksəkliyinin azad edilməsi ilə Cocuq Mərcanlı kəndinin bərpasına şərait yarandı. Böyük qayıdışın başlanğıcı olan Cocuq Mərcanlı kəndi bərpa edildi. Həmçinin ötən il Tərtər rayonunun Şıxarx qəsəbəsində 1170 ailəyə sevinc yaşadan yeni şəhərcik salındı. Bəyanatda bildirilir ki, əsasını ulu öndər Heydər Əliyevin qoyduğu humanist siyasət hazırda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir. Bununla bağlı ardıcıl olaraq bütün lazımi tədbirlər görülür, müvafiq addımlar atılır. 2017-ci ilin mart ayında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi Mehriban Əliyevanın ilk müşavirəsini Bakı və Sumqayıt şəhərlərindəki qəzalı vəziyyətdə olan yataqxanalarda müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr etməsi, bundan sonra may ayında Birinci vitse-prezident tərəfindən Qaradağ rayonunun Lökbatan qəsəbəsinin yaxınlığında 1026 məcburi köçkün ailəsi üçün bütün sosial-texniki infrastrukturu ilə salınan yeni yaşayış məhəlləsinin təməlinin qoyulması, bu yaxınlarda isə “Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması layihəsi”nin icrası çərçivəsində daha ağır vəziyyətdə yaşayan 214 məcburi köçkün ailəsinin Masazırda və Mehdiabad qəsəbəsindəki Gənclər şəhərciyində yeni mənzillərə köçürülməsi, oktyabrın 5-də isə həmin layihə çərçivəsində Masazır və Ramana qəsəbələrində məcburi köçkünlər üçün inşa edilmiş daha 260 ailəlik binaların açılış mərasimlərində iştirak etməsi, həmin tədbirlərdəki çıxışları zamanı bu sahədə işlərin sürətləndirilməsinin və təxirəsalınmaz tədbirlərin görülməsinin vacibliyini önə çəkməsi və bunlara uyğun olaraq işlərə başlanılması da məhz bu diqqət və qayğının nəticəsidir. Bununla yanaşı, həm Bakı şəhərində, həm də Sumqayıtda artıq tikilmiş hazır binalarda həmin məqsəd üçün dövlət tərəfindən mənzillər alınır. Bəyanatda daha sonra deyilir: “Aprel ayının 11-də ölkəmizdə keçiriləcək prezident seçkilərinə hazırlıqlar başlayıb. Ötən həftə VI qurultayını keçirən Yeni Azərbaycan Partiyası xalqın alternativsiz lideri olan İlham Əliyevin prezidentliyə namizədliyini irəli sürdü.

Qaçqın və məcburi köçkün icmalarının nümayəndələri hesab edirlər ki, partiyanın bu qərarı ümumilikdə xalqın mövqeyinin ifadəsidir. Çünki cənab İlham Əliyev bütün fəaliyyəti ilə yenidən prezident seçilmək üçün xalqın tam etimadını qazanıb. İnanırıq ki, Azərbaycanı xoşbəxt gələcəyə aparan siyasət növbəti 7 ildə də uğurla davam edəcək. Biz Azərbaycan xalqını müasir dünya siyasətində öz sözü və rolu olan şəxsiyyətə - İlham Əliyevə səs verməyə çağırırıq”.

# Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində yenidən qurulan ölkə səhiyyəsi bir sıra mühüm nailiyyətlərə imza atıb





Fevralın 14-də Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda bu il aprelin 11-də prezident seçkilərində tibb ictimaiyyətinin nümayəndələri tərəfindən Prezident İlham Əliyevin namizədliyinin dəstəklənməsinə həsr olunmuş toplantı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Sudeyif İmamverdiyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qazanılan uğurlardan danışıb. O, Azərbaycanın dünyanın iqtisadi cəhətdən sürətlə inkişaf edən, mütərəqqi, sivil dəyərlərə malik ölkə olduğunu vurğulayaraq deyib: “Bütün sahələrdə ildən-ilə inkişaf edən Azərbaycanın hərbi qüdrəti də artır, ordumuz güclənir və bu, bizdə erməni işğalında olan torpaqlarımızın azad ediləcəyinə böyük inam yaradır. Xalqın rifahının və sosial vəziyyətinin yaxşılaşması, o cümlədən həkimlərə göstərilən qayğı və diqqətin getdikcə yüksəlməsi, eləcə də digər istiqamətlərdə qazanılan nailiyyətlər bizi növbəti seçkilərdə yenə də İlham Əliyevə səs verməyə sövq edir”.

Toplantının moderatoru Azərbaycan Tibb Universitetinin II uşaq xəstəlikləri kafedrasının professoru Surxay Musayev bildirib ki, Prezident İlham Əliyev hakimiyyətə gəldiyi gündən onun siyasətinin mərkəzində Azərbaycan vətəndaşlarının sağlamlığı dayanır. Əhalinin rifahının yaxşılaşdırılması, sosial problemlərin həlli, insanların müasir səhiyyə xidmətləri ilə təmin olunması istiqamətində ardıcıl addımlar atılıb. Son 15 ildə ölkədə səhiyyə islahatları uğurla reallaşdırılıb. Bu gün təkcə paytaxtda deyil, bölgələrdəki tibb müəssisələri də ən müasir avadanlıqla təchiz olunub. Müalicə-diaqnostika mərkəzləri, xəstəxanalar tikilib, mövcud səhiyyə ocaqları əsaslı surətdə yenidən qurulub, bölgə sakinləri birbaşa yerlərdə müalicə olunmaq imkanı qazanıblar.

Ölkədə səhiyyə islahatlarının uğurla reallaşdığını bildirən Mərkəzi Klinik Xəstəxananın baş həkimi, Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətinin sədri, tanınmış kardiocərrah Kamran Musayev əhalinin sağlamlığının qorunmasında və tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasında səhiyyənin prioritet sahələri üzrə qəbul olunan dövlət proqramlarının mühüm rol oynadığını vurğulayaraq deyib: “Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədəki tibb ocaqlarında xidmətin keyfiyyəti yaxşılaşdırılıb. Azteminatlı və ağır xəstəliklərdən əziyyət çəkən insanlar pulsuz dərmanlarla təmin olunması və müalicəyə cəlb edilməsi ölkə siyasətinin əsas istiqamətlərindən biridir. Son illər səhiyyə sahəsində yaşanan ən böyük inqilabi dəyişiklik isə bu sektorun dünyanın müasir tibbi texnika və avadanlıqları ilə təmin olunmasıdır. Müasir Azərbaycanı modern texnologiyaların tətbiq olunduğu məkana çevirmək məqsədini qarşıya qoyan Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə yenidən qurulan səhiyyə müəssisələri regionda ilk dəfə açıq ürək əməliyyatı və qara ciyərin köçürülməsi kimi mühüm nailiyyətlərə imza atıb. Bu illər ərzində regionlarda onlarla tibb ocağının, müalicə-diaqnostika mərkəzinin inşası səhiyyə sisteminin inkişafından xəbər verir. Mən bir kardiocərrah kimi xüsusilə vurğulamaq istərdim ki, hazırda istər paytaxt Bakıda, istərsə də bölgələrdə ən yüksək avadanlıqlarla təchiz edilmiş tibb mərkəzlərində ürək əməliyyatlarının aparılması adi hala çevrilib. Elə mənim çalışdığım Mərkəzi Klinik Xəstəxana 2001-ci ildə ulu öndər Heydər Əliyevin iştirakı ilə açılıb. Bu klinikada xəstəliklərin müalicəsində tibbin ən son yenilikləri tətbiq edilir”.

Digər çıxış edənlər səhiyyəmizin son illər beynəlxalq aləmdə nüfuzunun yüksəldiyini bildiriblər. Qeyd olunub ki, bu gün Azərbaycan tibb sahəsi müxtəlif səviyyəli saziş və protokollar əsasında dünyanın bir sıra ölkələri ilə məhsuldar əməkdaşlıq edir. Bütün bunlar Azərbaycanda səhiyyə sahəsində qazanılan uğurların yalnız bir hissəsidir.

Sonra Azərbaycan tibb ictimaiyyətinin bəyanatı səsləndirilib. Bəyanat toplantıda iştirak edən təşkilatların nümayəndələri tərəfindən imzalanıb. Bəyanatda vurğulanır ki, Azərbaycan səhiyyə işçiləri ulu öndər Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin namizədliyini bu seçkilərdə də dəstəkləyəcəklər. Bildirilir ki, onun rəhbərliyi ilə Azərbaycan Respublikası qarşıdakı illərdə daha böyük nailiyyətlərə imza atacaq, müstəqil dövlətimizin beynəlxalq aləmdə nüfuzu daha da artacaq.



# Ağsaqqallar Şurasının iclasında prezident seçkilərində İlham Əliyevin namizədliyinin dəstəklənməsi ilə bağlı müraciət qəbul olunub

***Fevralın 14-də Azərbaycan Ağsaqqallar Şurasının iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkilərində dövlətimizin başçısı İlham Əliyevin namizədliyinin Şura tərəfindən dəstəkləndiyini söyləyib. O deyib ki, ulu öndər Heydər Əliyevin siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan sürətlə inkişaf edir, ölkədə sabitlik mövcuddur.***

İlham Əliyev hələ uzun müddət bu uğurlu siyasəti davam etdirəcək. Azərbaycanın dünya arenasında nüfuzunun daha da artması üçün qətiyyətli, iradəli, praqmatik dövlət xadimi lazımdır və İlham Əliyev də məhz belə şəxsiyyətdir. Azərbaycan Ağsaqqallar Şurası xalqımızı prezident seçkilərində dövlətimizin başçısı İlham Əliyevi dəstəkləməyə çağırır. Ağsaqqallar ölkədə bütün sahələrdə gedən iqtisadi, siyasi islahatları, beynəlxalq əlaqələrlə bağlı prosesləri izləyir və bu nəticəyə gəlirlər ki, tutduğumuz yol düzgün yoldur. İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan dünyada nümunəvi ölkə kimi tanınır.

Milli Məclisin səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov deyib ki, bu gün hər bir azərbaycanlı İlham Əliyevin namizədliyini dəstəkləməlidir. Məhz ümummilli lider Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycan 1990-cı illərin əvvəlində yaranmış ağır böhrandan çıxa bildi. Azərbaycanı düşünən, sevən hər bir insan bilir ki, bu gün Prezident İlham Əliyevin apardığı siyasət Heydər Əliyev siyasətinin davamıdır. Əgər istəyiriksə ki, övladlarımız, nəvələrimiz firavan, sabit bir ölkədə yaşasınlar biz ağsaqqallar İlham Əliyevin namizədliyini dəstəkləməliyik. İlham Əliyevin gördüyü işlər göz qabağındadır. Ona görə də prezident seçkilərində İlham Əliyevin alternativi yoxdur. Biz İlham Əliyevə səs verməklə Azərbaycanın firavanlığına, sabitliyinə səs verəcəyik.

Tədbirdə digər çıxış edənlər deyiblər ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasi kursun hazırda Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirilməsi nəticəsində Azərbaycanın çox böyük uğurlara imza atması ölkəmizin dünya birliyində mövqelərinin yüksəlməsini təmin edib. Bu gün Azərbaycan qüdrətli dövlətlər sırasında öz yerini tutub.

İclasda aprelin 11-də keçiriləcək prezident seçkilərində İlham Əliyevin namizədliyinin dəstəklənməsi ilə bağlı müraciət qəbul olunub. Müraciətdə bildirilir ki, müasir dövrdə dünyanın bir çox ölkələrinin üzləşdiyi iqtisadi, siyasi böhranlara baxmayaraq, respublikamız öz sabit və dinamik inkişaf dövrünü yaşayır. Beynəlxalq miqyasda böyük nüfuza malik bir ölkə kimi tanınan Azərbaycanda qarşıya qoyulan bütün vəzifələr və infrastruktur layihələri uğurla icra edilir, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində mühüm islahatlar aparılır. Bu gün Azərbaycanda heç də bütün ölkələrdə mövcud olmayan ictimai-siyasi sabitlik və inkişaf hökm sürür ki, bunun da əsasında ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət strategiyasının İlham Əliyev tərəfindən müasir dövrün reallıqlarına və tələblərinə uyğun şəkildə uğurla və qətiyyətlə davam etdirilməsi, həmçinin müdrikliklə və uzaqgörənliklə reallaşdırılan daxili və xarici siyasət kursu dayanır.

Müraciətdə qeyd edilir ki, Azərbaycan Ağsaqqallar Şurasının üzvləri dövlətimizin başçısının rəhbərliyi ilə aparılan nəhəng quruculuq işlərində daim yaxından iştirak edir, zəngin həyat təcrübələrindən, bilik və bacarıqlarından istifadə etməklə ictimai həyatın müxtəlif sahələrinin inkişafına öz töhfələrini verirlər. Ağsaqqallar əhalinin bütün təbəqələrinin Prezident İlham Əliyevin ətrafında sıx birləşməsi, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması sahəsində öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər.

Vurğulanır ki, bu gün Prezident İlham Əliyevin uzaqgörən və uğurlu siyasəti nəticəsində Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında qabaqcıl yerlərdən birini tutur. Beynəlxalq səviyyədə reallaşdırılan enerji və nəqliyyat layihələrində, həmçinin regionda sülhün və təhlükəsizliyin təmin edilməsində ölkəmiz həlledici rol oynayır. Belə bir şəraitdə Azərbaycana İlham Əliyev kimi parlaq düşüncəli, uzaqgörən, qətiyyətli, iradəli və müdrik bir şəxsiyyətin rəhbərlik etməsi çox vacibdir. Bu səbəbdən də Azərbaycan ağsaqqalları ölkəmizin gələcək inkişafı və xalqımızın rifahı naminə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin davam etdirilməsini zəruri hesab edir, Yeni Azərbaycan Partiyasının qurultayında onun yenidən ölkə prezidentliyinə namizədliyinin irəli sürülməsini alqışlayırlar. Azərbaycan Ağsaqqallar Şurasının üzvləri qarşıdan gələn prezident seçkilərində İlham Əliyevin namizədliyini dəstəkləyirlər.

# Sahibkarlar əmindirlər ki, Azərbaycanın inkişafı Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da sürətlənəcək

Sahibkarlar əmindirlər ki, Azərbaycanın inkişafı Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da sürətlənəcək. Buna görə də Azərbaycan sahibkarları prezident seçkilərində dövlətimizin başçısı İlham Əliyevin namizədliyini dəstəkləyəcəklər. AZƏRTAC xəbər verir ki, bu fikirləri fevralın 14-də Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayev “Regionların inkişafında sahibkarlığın rolu” mövzusunda keçirilən konfransda deyib.




İki yüzdən çox sahibkarın iştirak etdiyi konfransda konfederasiyanın prezidenti bildirib ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu iqtisadi inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkə iqtisadiyyatının potensialının daha da yüksəlməsinə şərait yaradıb, Azərbaycanda dayanıqlı və sabit iqtisadi sistem formalaşıb. Ölkədə sahibkarlığın inkişafı istiqamətində reallaşdırılan kompleks və sistemli tədbirlər, bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi özəl bölmənin inkişafını sürətləndirib, iri şəhərlərlə yanaşı, regionlarda da sahibkarlığın inkişafına əlverişli şərait yaradıb. Bütün bunların nəticəsində sahibkarlıq iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib.



Məmməd Musayev deyib ki, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində görülən işlər bölgələrdə iqtisadi potensialın artmasında, infrastruktur təminatının, biznes mühitinin yaxşılaşmasında və əhalinin rifahının yüksəlməsində mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, regionların iqtisadi potensialından istifadənin səmərəliliyinin artırılmasında, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsində, məşğulluğun təmin edilməsində sahibkarlığın rolu böyükdür və özəl bölmənin iqtisadi inkişafda önəmi artır.

“Dövlətimizin başçısının siyasətinə həmişə sadiq olan və cəmiyyətin fəal hissəsini təşkil edən sahibkarlar inanırlar ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişafın Azərbaycan modeli yeni mərhələdə də keyfiyyətcə öz nailiyyətləri ilə davamlı inkişafın istinadına çevriləcək. Bütün bunları nəzərə alaraq, çoxminlik Azərbaycan sahibkarları adından cari il aprelin 11-də keçiriləcək prezident seçkilərində İlham Əliyevin namizədliyini yekdilliklə dəstəkləyəcəyimizi bildirirəm”, - deyə M.Musayev vurğulayıb. Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə qeyd edib ki, qeyri-neft sektorunun və regionların sosial-iqtisadi inkişafı iqtisadi siyasətin prioritet istiqaməti kimi müəyyən olunub. Dövlətimizin başçısının həyata keçirdiyi sosial-iqtisadi siyasətə uyğun olaraq, sahibkarlıq mühitinin davamlı şəkildə yaxşılaşdırılması, regionlarda infrastrukturun müasirləşdirilməsi, sahibkarlığın maliyyə təminatının artırılması, dövlət-özəl sektor münasibətlərinin inkişafı nəticəsində Azərbaycan iqtisadiyyatında regionların xüsusi çəkisi artmaqda davam edir.

Komitə sədri diqqətə çatdırıb ki, hər il Azərbaycanın iqtisadiyyatı daha da möhkəmlənir, iqtisadiyyatda keyfiyyət dəyişiklikləri baş verir, ölkədə vətəndaş həmrəyliyi güclənir. Bütün bunlar Azərbaycan Prezidentinin apardığı düşünülmüş siyasətin hesabına formalaşıb.

Xalqın qarşıdakı seçkilərdə düzgün mövqe tutacağına əminliyini ifadə edən Z.Səmədzadə hər bir şəxsi Azərbaycanın gələcəyi, onun qüdrətinin artması, beynəlxalq arenada nüfuzunun daha da möhkəmlənməsinə səs verməyə çağırıb.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev dövlətimizin başçısı İlham Əliyevin sahibkarlığın inkişafına böyük önəm verdiyini, ölkənin sosial-iqtisadi tərəqqisində sahibkarların rolunu vurğulayıb. Bildirib ki, yeni iş yerlərinin yaradılmasında, işsizliyin və yoxsulluğun səviyyəsinin azaldılmasında özəl bölmənin fəaliyyəti xüsusi qeyd edilməlidir. Bu baxımdan, işçilərin sosial-iqtisadi hüquqlarının müdafiəsində həmkarlar təşkilatları ilə yanaşı, sahibkarlar da maraqlı olmalıdırlar.

“Azərbaycan xalqının sosial-iqtisadi həyatındakı uğurlar dövlətimizin başçısının apardığı siyasətin, həyata keçirdiyi strategiyanın nəticəsidir. Xalqımızın xoşbəxt, firavan gələcəyini görmək istəyiriksə, prezident seçkilərində dövlətimizin başçısı İlham Əliyevin namizədliyini dəstəkləməliyik”, - deyə Səttar Möhbalıyev qeyd edib. Auditorlar Palatasının sədri Vahid Novruzov bildirib ki, Prezident İlham Əliyevin regionların inkişafına göstərdiyi xüsusi diqqət bu gün öz bəhrəsini verməkdir. Ölkə iqtisadiyyatının, qeyri-neft sektorunun inkişafı sahibkarlığın inkişafından asılıdır. Ölkədə sahibkarların fəaliyyətinə dəstək olan bir çox layihələr həyata keçirilir, subsidiyalar verilir, vergi yükünün azaldılması istiqamətində mühüm addımlar atılır. Bütün bunlar Azərbaycan Respublikası Prezidentinin həqiqətən də sahibkarların dostu olduğunu göstərir. Bu səbəbdən aprelin 11-də dövlətimizin başçısı İlham Əliyevə səs verib Azərbaycanın uğurlu gələcəyi üçün çalışmağa davam edəcəyik.

Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev ölkə rəhbərliyinin bank sektorundakı siyasətinə toxunub. O deyib ki, 14 ildə Azərbaycanda bank aktivlərinin ümumi həcmi 27 dəfəyə yaxın artıb. Həmin dövrdə kredit portfelinin həcmi 19 dəfə, bank sektorunun depozit bazası 28 dəfə, əhalinin əmanətləri isə 30 dəfəyə yaxın artıb. Ümumilikdə kapitalın həcmində 20 dəfəyə yaxın artım müşahidə olunub. 188 milyon manatdan başlayan balans kapitalının həcmi bu gün 3,7 milyard manata çatıb.

“Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yenidən prezident seçilməsi ölkədə həyata keçirilən genişmiqyaslı islahatların və inkişaf layihələrinin uğurla davam etdirilməsinə imkan yaradacaq. Özündə 16 mindən artıq intellektual seçicini birləşdirən bank icmasının təmsilçisi olaraq Azərbaycan Banklar Assosiasiyasının adından İlham Əliyevin növbəti prezident seçkilərində namizədliyini dəstəkləyirik”, - deyə Z.Nuriyev vurğulayıb.

Tikinti Materialları İstehsalçıları Assosiasiyasının idarə heyətinin sədri, ASK-nın Rəyasət Heyətinin üzvü Elxan Bəşirov tikinti sektorunda görülən işlərdən, həyata keçirilən layihələrdən bəhs edib. Qeyd edib ki, dövlətimizin başçısının sahibkarlar üçün yaratdığı şərait, sahibkarlığın inkişafı ilə bağlı imzaladığı fərmanlar bu layihələrin həyata keçirilməsinə böyük stimul verib. Bunları nəzərə alan sahibkarlar Prezident İlham Əliyevin namizədliyini dəstəkləyir və seçkilərdə hər birimiz bu dəstəyi nümayiş etdirməyə hazırıq.

“CTS-Aqro” MMC-nin direktoru, ASK-nın vitse-prezidenti Zakir Əzimov bildirib ki, 2018-ci ildə 35 hektar ərazidən 70 min ton pambıq istehsalı nəzərdə tutulub. Qarşıdakı illər ərzində isə bu rəqəmin 100 min tona çatdırılması planlaşdırılır. Z.Əzimov MMC-nin kollektivi adından Prezident İlham Əliyevin namizədliyini dəstəkləyəcəklərini söyləyib. Azərbaycan Türk İş Adamları Birliyinin idarə heyətinin sədri Camal Yanğın, “Azərsun Holdinq”in Müşahidə Şurasının sədri, ASK-nın rəyasət heyətinin üzvü Abdulbari Gözəl, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının idarə heyətinin sədri Səkinə Babayeva, Azərbaycanda Amerika Ticarət Palatasının icraçı direktoru Natəvan Məmmədova, Mebel İstehsalçıları Assosiasiyasının idarə heyətinin sədri Məşhur Məmmədov çıxış edərək Azərbaycan Prezidentinin sahibkarlara daim dəstək göstərdiyini, sahibkarlıq sahəsində həyata keçirilən islahatları və qəbul edilmiş hüquqi aktları böyük razılıqla qarşıladıqlarını bildirib, sahibkarlığın inkişafına göstərilən diqqət və qayğıdan geniş bəhs ediblər. Bildiriblər ki, 2018-ci il aprelin 11-də keçiriləcək prezident seçkilərində dövlətimizin başçısı İlham Əliyevin namizədliyini dəstəkləyəcək, Azərbaycanın uğurlu gələcəyi naminə səs verəcəklər.

Konfransın sonunda bəyanat qəbul edilib. Bəyanatda deyilir ki, bu gün ölkəmizin siyasi nüfuzuna və iqtisadi qüdrətinə arxalanan iş adamları ölkə daxilində və xaricində uğurla fəaliyyət göstərirlər. Görülmüş tədbirlər nəticəsində özəl bölmənin ümumi daxili məhsuldakı payı 80 faizdən çoxdur, məşğulluqda isə 75 faizi ötüb. Dövlətimizin başçısının müxtəlif tədbirlərdə, ölkəmizin şəhər və rayonlarında keçirdiyi görüşlərdəki çıxışları zamanı sahibkarların istək və təkliflərinə həssas münasibəti, bu sahədə imzaladığı fərman və sərəncamlar biz sahibkarları işimizə daha böyük həvəslə və peşəkarlıqla yanaşmağa ruhlandırır. İnanırıq ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə doğma Azərbaycanımız bundan sonra da böyük uğurlara imza atacaq, ölkəmiz daha da qüdrətlənəcək. Danılmaz faktdır ki, bu günədək Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən genişmiqyaslı işlər nəticəsində sahibkarlar ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevriliblər. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Yol Xəritəsinə uyğun olaraq, ölkəmizdə biznes və investisiya mühiti davamlı surətdə yaxşılaşır, qanunvericilik təkmilləşdirilir, inzibati prosedurlar sadələşdirilir, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və onların inzibati yükünün azaldılması üçün məqsədyönlü işlər görülür. Bu siyasətin davamı olaraq, hər il 25 aprel tarixinin Azərbaycan Respublikasında Sahibkarlar Günü kimi qeyd edilməsi barədə Sərəncam da sahibkarlığın inkişafına ən yüksək səviyyədə göstərilən diqqət və qayğının əyani göstəricisi olmaqla, cəmiyyətdə sahibkarlığa dəstək əhval-ruhiyyəsinin artırılmasına təkan verib.

Bəyanat bu fikirlərlə yekunlaşır: “Biz - “Regionların inkişafında sahibkarlığın rolu” mövzusunda keçirilən konfransın iştirakçıları cəmiyyətin fəal hissəsini təşkil edən çoxminlik sahibkarlar adından dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın sürətli sosial-iqtisadi inkişafını, dövlətçilik ənənələrinin və demokratik təsisatların gücləndirilməsini, ölkənin beynəlxalq nüfuzunun və müdafiə qabiliyyətinin ciddi şəkildə möhkəmləndirilməsini, habelə onun şəxsində Azərbaycanın inkişaf perspektivlərinə etibarlı təminatı nəzərə alaraq aprelin 11-də keçiriləcək prezident seçkilərində İlham Əliyevin Azərbaycan Respublikasının prezidentliyinə namizədliyini dəstəklədiyimizi bəyan edirik”.

# Azərbaycan dindarları Prezident İlham Əliyevin inanclı insanlara diqqət və qayğısını yüksək qiymətləndirirlər

Azərbaycanda bütün dini konfessiyalara eyni münasibət göstərilir. Onlara dini ayinlərini icra etmələri üçün hər cür şərait yaradılıb. Dövlətimizin başçısı İlham Əliyev inanclı insanlara hər zaman xüsusi diqqət və qayğı ilə yanaşır. Dindarlarımız bunu yüksək qiymətləndirirlər.

AZƏRTAC xəbər verir ki, bu fikirləri prezident seçkiləri ilə əlaqədar Qafqaz Müsəlmanları İdarəsində (QMİ) keçirilən tədbirdə idarənin sədri şeyxülislam Allahşükür Paşazadə bildirib. Şeyxülislam qeyd edib ki, xalqımız hər zaman Prezident İlham Əliyevi dəstəkləyib. Azərbaycan dindarları aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkilərində də dövlətimizin başçısı İlham Əliyevin namizədliyini dəstəkləyəcəklər. Çünki Prezident İlham Əliyevin dinə və dindarlara olan münasibəti göz qabağındadır. Sovet dövründə xalqımız dini məsələlərdə çox əziyyətlər çəkib. Lakin ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gələndən sonra bu sahədəki problemlər öz həllini tapıb. Müstəqillik illərində ümummilli lider Heydər Əliyev dövlət-din münasibətlərinin yeni müstəvidə formalaşmasında mühüm rol oynayıb. Ulu Öndərin bu siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilir.

Bu gün bütün dindarların ölkəmizdə dinlə bağlı atılan addımlardan və onlara verilən imtiyazlardan məmnunluğunu vurğulayan A.Paşazadə din xadimlərinə maaşların verilməsi barədə qərarı dindarlara müsbət münasibətin bariz nümunəsi kimi səciyyələndirib. Şeyxülislam vurğulayıb ki, həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev Azərbaycanda dindarlar üçün hər cür şərait yaradıb. O, bütün dindarları prezident seçkilərində İlham Əliyevin namizədliyini dəstəkləməyə çağırıb.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Azərbaycandakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Azərbaycandakı Alban-Udi Xristian İcmasının sədri Robert Mobili, Roma Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete və başqaları ölkəmizdəki dini tolerantlıq mühitini yüksək qiymətləndiriblər. Qeyd edilib ki, Azərbaycan tarixən müxtəlif xalqların, millətlərin və din mənsublarının birgə yaşadığı, mədəniyyətlərin qovuşduğu müqəddəs məkan olub. Tolerantlığın Azərbaycanda çox möhkəm təməl sütunları, zəngin ənənələri, dərin tarixi və mədəni kökləri var. Çıxış edənlər dövlətin din sahəsinə qayğısından, ulu öndər Heydər Əliyevin milli mənəvi dəyərlərimizin qorunması istiqamətində xidmətlərindən söz açıb, Prezident İlham Əliyevin bununla bağlı həyata keçirdiyi tədbirləri xüsusi vurğulayıblar. Bildirilib ki, Azərbaycanda tarixən tolerant cəmiyyətin bərqərar olması burada məskunlaşmış azsaylı xalqlara və etnik qruplara öz varlıqlarını qoruyub saxlamağa əlverişli mühit yaradıb. Bu gün də Azərbaycan dövləti azsaylı icmaların fəaliyyətinə qayğı ilə yanaşır.

Tədbirdə Azərbaycandakı dini konfessiyaların rəhbərlərinin aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı bəyanatı qəbul olunub. Bəyanatda deyilir: "Biz, milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycan dindarları - müsəlman, pravoslav, katolik, yəhudi, alban-udi və digər dini icmaların nümayəndələri ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə - prezident seçkiləri ilə əlaqədar bir araya gələrək aşağıdakıları bəyan etməyi öz vətəndaş borcumuz hesab edirik. O Bir Olan Yaradan qarşısında məsuliyyət hissi ilə bildiririk ki, Vətənimizdə son illər ərzində həyatın bütün sahələrində baş verən tərəqqi - iqtisadiyyatımızın güclənməsi, daxili və xarici siyasətdəki uğurlar, insanların rifah halının yüksəlməsi, hərbi müdafiə qabiliyyətimizin artması ilə yanaşı, dini-mənəvi həyatı ehtiva edən dəyərli dəyişikliklər hər bir dindarın rəğbətinə səbəb olan məqamlardır. Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP qaz kəməri, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi kimi regional əhəmiyyətli iqtisadi layihələrin fonunda Allah evlərinin, ibadət məkanlarının nəfis şəkildə inşa və böyük məhəbbətlə bərpa olunan binaları, dindarların maddi-mənəvi tələbatlarına qayğı, milli-dini və ümumbəşəri dəyərlərə yüksək ehtiram ölkəmizin nüfuz və qüdrətinin təzahürləridir. Vətənimiz Azərbaycan beynəlxalq müstəvidə həm də mədəniyyətləri, dinləri bir araya gətirən, mənəvi-humanitar məqsədlər ətrafında cəm edən qabaqcıl bir ölkə kimi tanınır. Uca Allaha xoş gedən multikultural həyat tərzini yaşadan və təbliğ edən cəmiyyətimizin və onun liderinin O Bir Olan Yaradanımızın nəzərində dəyəri yüksəkdir. Hər bir mömin vətəndaş ölkəmizin həyatında bütün bu nailiyyətləri şükranlıqla qarşılayaraq, bunu Uca Yaradanın lütfü sayəsində dövlət rəhbərinin həyata keçirdiyi uğurlu siyasətin bəhrəsi kimi dəyərləndirir. Azərbaycanı parçalanmaq və müstəqil dövlətçiliyimizi məhv olmaq təhlükəsindən xilas etmiş ulu öndərimiz Heydər Əliyevin siyasi xəttinin davamçısı İlham Əliyev həzrətlərinin misilsiz əzm və səyləri sayəsində Azərbaycan xalqı müstəqilliyimizin əbədi və dönməzliyinə əmindir".



Bəyanatda qeyd edilir ki, Azərbaycan siyasətinin avanqardında yer alan Yeni Azərbaycan Partiyası qarşıdan gələn prezident seçkilərində Prezident İlham Əliyevin namizədliyini irəli sürüb. Bu namizəd, əslində, bütün xalqın namizədidir. Azərbaycan dindarlarının ümumi mövqeyi prezident seçkilərində məhz İlham Əliyevin ən layiqli namizəd olmasından ibarətdir. Siyasi, iqtisadi, mənəvi böhranlarla üz-üzə qalan dünyada sabitlik, rifah və dini-mənəvi əmin-amanlıq məkanı olan ölkəmizin uğurları həqiqətən böyük dəyər kəsb edir. Biz, Azərbaycan dindarları, dini icmaların rəhbərləri müstəqil Azərbaycanda uğurlu din-dövlət siyasətinin bəhrəsi olan tolerant, multikultural, hüquqi-demokratik cəmiyyəti dünyanın istənilən nöqtəsində qürur hissi ilə təmsil etməkdən məmnunluq duyuruq. Azərbaycanın dünyada mədəniyyətlərarası və dinlərarası dialoqun mühüm mərkəzlərindən biri kimi tanınması və qəbul olunması dövlətimizin başçısının ardıcıl məntiqlə davamlı şəkildə həyata keçirdiyi dövlət siyasətinin real bəhrəsidir. Sivilizasiyaların, mədəniyyətlərin dialoq və əməkdaşlığına dair 2008-ci ildə "Bakı Prosesi"nin əsasının qoyulması, 2016-cı ilin "Multikulturalizm İli", 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi Azərbaycan dövlətinin rəhbərinin siyasi iradə və humanist təfəkkürünün bariz nümunəsidir. Tərəqqipərvər dünya ictimaiyyəti bu istiqamətdə səyləri layiqincə qiymətləndirir, Azərbaycan xalqı isə buna görə öz liderinə minnətdardır.

"Biz, Azərbaycan dindarları, dövlətçiliyimizin möhkəmləndirilməsi, xalqın rifahının artırılması yönündə böyük işlər görən, dünyada miqrant böhranı yaşandığı dönəmdə məcburi köçkün soydaşlarımızın dədə-baba torpaqlarına qayıdışı üçün misilsiz səylər göstərən, Cocuq Mərcanlı məscidi ilə işğaldan azad olunmuş torpaqlarımıza Böyük qayıdışın mənəvi təməlini qoyan liderimizin olmasını yüksək dəyərləndirir, Azərbaycan dövlətinin başçısı məqamında O Bir Olan Yaradana xoş gələn əməllər sahibinin olmasını səmimi qəlbdən diləyirik. Biz dünyəvi dövlət şəraitində dini-mənəvi dəyərlərin intibahı üçün atılan addımların, göstərilən misilsiz səylərin qarşısında yalnız və yalnız bu uğurlu xəttin davam və inkişafını dəstəkləyirik. Aprelin 11-də Azərbaycan Respublikasında keçiriləcək prezident seçkiləri, heç şübhəsiz ki, xalqımızın həyatında mühüm siyasi hadisə olmaqla, hər bir dindar üçün də taleyüklü, önəmli məqamdır. Biz bütün Azərbaycan dindarlarını uca mənəviyyat yolunun davamına - Yeni Azərbaycan Partiyasının lideri İlham Əliyevin namizədliyini dəstəkləməyə çağırırıq.

Qoy Uca Yaradan öz Lütf və Mərhəmətini hər zaman Azərbaycan xalqı və dövləti üzərində bərqərar etsin!", - deyə bəyanatda qeyd olunur. Bəyanatı Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr, Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev, Roma Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete, Azərbaycandakı Alban-Udi Xristian İcmasının sədri Robert Mobili imzalayıblar.

## Azərbaycan Ordusunun 100 illiyi münasibətilə keçiriləcək tədbirlərin mediada işıqlandırılması məsələləri müzakirə olunub

Fevralın 14-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Müdafiə Nazirliyinin və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə ölkənin aparıcı media nümayəndələrinin Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Ordusunun 100 illiyi münasibətilə bayram tədbirlərinin kütləvi informasiya vasitələrində geniş işıqlandırılmasının həyata keçirilməsinə həsr olunan görüşü keçirilib.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir general-polkovnik Zakir Həsənovun adından tədbir iştirakçılarını salamlayan müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Sərəncamından irəli gələn tapşırıqların icrasının təmin edilməsi məqsədilə müdafiə naziri tərəfindən əmr imzalandığını və tədbirlər planının təsdiq edildiyini diqqətə çatdırıb. Nazir müavini Ali Baş Komandanın diqqət və qayğısı sayəsində son illər Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi hissə və bölmələrin maddi-texniki təminatının gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində aparılan geniş islahatlardan danışıb. General-leytenant K.Vəliyev bildirib ki, artıq əvvəlki dövrlə müqayisədə Orduda əhəmiyyətli yeniliklərin həyata keçirilməsinin nəticəsində həqiqi hərbi xidməti başa vurmuş xeyli sayda vətəndaşlarımız öz arzuları ilə yenidən müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunmaq barədə müraciət edirlər. Hərbi təhsilin daha da təkmilləşdirilməsi üçün görülən işlərdən danışan nazir müavini bu sahədə ardıcıl dövlət siyasətinin həyata keçirildiyini və Azərbaycanın inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsindən bəhrələndiyini də qeyd edib. Kütləvi informasiya vasitələri ilə əlaqələrin inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdıran general-leytenant K.Vəliyev ordu quruculuğu məsələlərində obyektivliyin və şəffaflığın təmin edilməsi baxımından bu əməkdaşlığın əhəmiyyətini xüsusi vurğulayıb.

Müdafiə Nazirliyinin idarə rəisi, general-mayor Rasim Əliyev, Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov, Mətbuat Şurası sədrinin müavini Umud Rəhimoğlu, Milli Məclisin deputatları - Aqil Abbas, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, "APA Holdinq"in rəhbəri Vüsalə Mahirqızı, "Teleqraf Holdinq"in rəhbəri Aynur Quliyeva, "Azeridefens" jurnalının baş redaktoru Rəşad Süleymanov, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "Ekspress" qəzetinin baş redaktoru Qəzənfər Bayramov, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, "Haqqin.az" saytının rəhbəri Eynulla Fətullayev, "Qaziler.az" saytının rəhbəri Rey Kərimoğlu, "Ordu.az" saytının redaktoru Şahin Qocayev və başqaları ordu-media əməkdaşlığının intensivləşməsini zəruri edən məqamlardan danışaraq istər səmərəliliyin artırılmasına, istərsə də cəmiyyətdə vətənpərvərlik təbliğatının gücləndirilməsinə yönələn təkliflərini səsləndiriblər. Görüş iştirakçıları bu kimi tədbirlərin aktuallığını nəzərə alaraq bundan sonra da əlaqəli əməkdaşlıq fəaliyyətinin davam etdiriləcəyinə əminliklərini bildiriblər.

# Xidmətin və şəffaflığın nümunəsi

## Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti 6 yaşını qeyd edir




***Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti 6 yaşını qeyd edir. Qeyd edək ki, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 13 Fevral 2012-ci il tarixli Fərmanına əsasən "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının 2011-ci il 23 dekabr tarixli 274-IVQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək və müvafiq sahədə idarəetmə strukturunun təkmilləşdirilməsi, onun müasir tələblərə uyğun qurulması məqsədi ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tabeliyində olan Azərbaycan Respublikasının Hərbi Komissarlığı, Naxçıvan Muxtar Respublikasının Hərbi Komissarlığı, rayon, şəhər, şəhər rayonu hərbi komissarlıqları ləğv edilib və onların əsasında Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yaradılıb.***

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Fərmanı ilə yaradılmış Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ölkədə səfərbərlik işinin təşkili, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, şəffaflıq əsasında həqiqi hərbi xidmətə cəlb edilməsi və ordu quruculuğu sahəsində dövlət xidmətini həyata keçirir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yarandıqdan sonra çağırış sisteminə diqqət artırılıb, müvafiq qanunvericilik bazası təkmilləşdirilib, hərbi qeydiyyat və hərbi uçot sahəsində vahid elektron-informasiya sistemi işə düşüb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müəyyən etdiyi dövlət siyasətinin icrasını tələb olunan səviyyədə təmin etmək məqsədilə ötən altı ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən əsaslı tədbirlər görülüb.

Səfərbərlik hazırlığı, Silahlı Qüvvələrin çağırışçılarla komplektləşdirilməsi, vətəndaşların hərbi-vətənpərvərlik tərbiyəsi, müddətli həqiqi hərbi xidmətə çağırışaqədərki hazırlığı istiqamətində əhəmiyyətli nəticələr əldə edilib. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində böyük inkişaf yolu keçərək ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə öz töhfəsini verib. Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik işinin təşkili, vətəndaşların ilkin hərbi qeydiyyata alınması, hərbi xidmətə hazırlanması və müddətli həqiqi hərbi xidmətə çağırılmasının təşkili, gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması, habelə, korrupsiyaya qarşı mübarizə sahəsində mühüm tədbirlər görülüb.



Səfərbərlik hazırlığının yüksəldilməsi məqsədilə ötən illər ərzində xidmətin yerli idarə, şöbə və bölmələrində silahlı qüvvələrə təyin edilmiş hərbi nəqliyyat vasitələri toplanaraq, onlara sıra baxışı keçirilib, texniki vəziyyətlərinin yoxlanılması daim nəzarətdə saxlanılıb. Görülən işlərin nəticəsi olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təlimlərində hərbi birləşmə və hissələrin hərbi vəzifələr və hərbi nəqliyyat vasitələri ilə komplektləşdirilməsi ilə bağlı qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirib.

Xidmət tərəfindən ötən illərdə "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Qanundan irəli gələn vəzifələrə uyğun olaraq, səfərbərlik hazırlığının təmin edilməsi üçün bütün respublika üzrə yerli icra hakimiyyəti orqanlarının iştirakı ilə səfərbərlik hazırlığı üzrə məşğələlər keçirilib. Həmçinin, silahlı qüvvələrə təhkim olunmuş hərbi vəzifəlilərin xəbərdar edilməsi və praktiki toplanması təşkil olunub, hərbi vəzifəlilər qeydiyyatdan keçirilərək, qanunvericiliyin tələbləri onlara izah edilib. Görülən işlərin nəticəsi olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Silahlı Qüvvələrimizin təlimlərində hərbi birləşmələrin və hissələrin hərbi vəzifələr və hərbi nəqliyyat vasitələri ilə komplektləşdirilməsi üzrə qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirib.

Korrupsiyaya qarşı mübarizə və şəffaflığın artırılması istiqamətində tədbirlər sırasında mühüm yeri vətəndaşlara elektron xidmətlərin göstərilməsi tutur. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti də bu istiqamətdə mühüm nailiyyətlər əldə edib. Xidmət tərəfindən vətəndaşlara müxtəlif elektron xidmətlər göstərilir. Artıq bir neçə ildir ki, çağırışçılar müddətli həqiqi hərbi xidmətlərini hansı qoşun növündə, yaxud hərbi hissədə keçmələri barədə məlumatları SMS vasitəsilə öyrənə bilirlər. Müraciətlərin çoxluğu elektron xidmətlərin vətəndaşlar tərəfindən maraqla qarşılandığını göstərir. Ötən müddətdə elektron xidmətlərlə yanaşı, qurumun əməkdaşlarının "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərməsi də müsbət dəyişikliklərdəndir. "ASAN xidmət" dünyada Azərbaycan brendi kimi tanınıb. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti də bu işə töhfə verib.

Dövlət Xidmətinin fəaliyyət istiqamətinə uyğun olaraq, xidmətin rayon şöbələri vətəndaşların hərbi vətənpərvərlik tərbiyəsinin, vətəndaşlıq hisslərinin yüksəldilməsi, onların Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə hazırlıq ruhunda tərbiyə edilməsi istiqamətində mütəmadi olaraq ictimai tədbirlər reallaşdırır. Bunun nəticəsidir ki, bütün rayonlarda və şəhərlərdə gənclərin hərbi xidmətə yola salınması bayram ab-havasında qeyd edilir. Təsadüfi deyildir ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yaradıldığı gündən gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, çağırışçıların həqiqi hərbi xidmətə yola salınması, ordumuzun vətənpərvər, sağlam gənclərlə təmin edilməsi istiqamətində Ali Baş Komandanın qarşıya qoyduğu vəzifələri layiqincə yerinə yetirir. Bütün bunları nəzərə alaraq, əminliklə demək olar ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şəxsi heyəti dövlətin, xalqın və Ali Baş Komandanın etimadını doğrultmaq, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün bundan sonra da böyük səy və fədakarlıqla çalışacaq.

***"Səs" Analitik Qrupu***

## VI Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları Qəbələnin Nic qəsəbəsinə səfər ediblər





Prezident İlham Əliyevin tövsiyəsi və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Sivilizasiyalararası dialoq: yeni çağırışlar" adlı VI Beynəlxalq Multikulturalizm Qış Məktəbi fevralın 14-də öz işini Qəbələdə davam etdirib. Qış məktəbinin iştirakçıları əvvəlcə rayonun Nic qəsəbəsində olublar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Nic qəsəbəsindəki "Cotari" Alban-Udi kilsəsinin konfrans zalına toplaşan yerli və əcnəbi gənclər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici Əlaqələr Şöbəsinin müdiri Nicat Məmmədlinin "Azərbaycanda dini müxtəliflik" mövzusunda mühazirəsini dinləyiblər. Nicat Məmmədli Azərbaycan ərazisində qədim zamanlardan bəri müxtəlif dini etiqadların təşəkkül tapdığını diqqətə çatdırıb. Bildirilib ki, Azərbaycan ərazisində dini təsəvvür və əqidələr ən qədim zamanlardan mövcuddur. Qədim azərbaycanlılar arasında əcdadların ruhlarına, qayalara, ağaclara, müxtəlif təbiət hadisələrinə və xüsusən də səma cisimlərinə pərəstiş güclü olub. Azərbaycanda islamdan əvvəl atəşpərəstlik, zərdüştilik, iudaizm, xristianlıq dinləri geniş yayılıb. Sonradan İslam dini xalqımızın milli mənəvi tarixində və mədəniyyətində əhəmiyyətli rol oynayıb. İslamın Azərbaycanda yayılması bir neçə mərhələni əhatə edib. Nicat Məmmədli adı çəkilən dinlərin yaranma tarixi, dini icmaların müxtəlif dövrlərdəki fəaliyyəti, dini-tarixi abidələri barədə geniş məlumat verib.

O qeyd edib ki, 1993-cü ildən sonra ölkəmizdə dinin təbliğinə və yayılmasına geniş şərait yaradılıb, bütün dinlərin və etiqadların qanun qarşısında bərabərliyi Konstitusiyada təsbit olunub. Ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə bir çox dini-tarixi abidələr bərpa və restavrasiya edilib, dini maarifçilik işinə xüsusi diqqət göstərilib. Bu iş hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Nicat Məmmədli Azərbaycanda dini icmaların qeydiyyatdan keçərək fəaliyyət göstərdiyini vurğulayıb.

Sonra Nic qəsəbəsində yerli əhali ilə görüşən əcnəbi tələbələr yaşayış məntəqəsi ilə tanış olublar. Gəzinti zamanı Nic qəsəbəsindəki "Cotari" Alban-Udi kilsəsinin və udi xalqının tarixi ilə bağlı məlumatlar tələbələrin diqqətinə çatdırılıb. Bildirilib ki, Nic qəsəbəsində "Orayın" Udi Mədəniyyət Mərkəzi fəaliyyət göstərir. Qəsəbə ərazisində Alban kilsəsi və digər qədim tarixi abidələr var. İbtidai sinif şagirdləri üçün udi dili tədris olunur. Udi icmasının nümayəndələri tələbələrə Azərbaycanda dini ayinlərin icrası üçün yaradılan şəraitdən söhbət açıb, dövlətin diqqət və qayğısını həmişə hiss etdiklərini qeyd ediblər. Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir, hər bir kəsin dini etiqad azadlığı təmin edilir. Azərbaycanda mövcud zəngin mədəni irsin qorunub saxlanılması alqışalayiqdir. Nic kilsəsinin bərpasından sonra udilər öz müqəddəs bayramlarını layiqincə qeyd edirlər.

Qış məktəbinin iştirakçıları üçün "Tufandağ" Yay-Qış Turizm İstirahət Kompleksində kanatla dağ gəzintisi də təşkil edilib.

# Milan Məhkəməsi sübut etdi - əsassız iddialar öz təsdiqini tapmır!



Sirr deyil ki, zaman-zaman bir sıra Qərb ölkələrinin bir sıra qurumları Azərbaycana qarşı qərəz və şantaj xarakterli əsassız iddialarla çıxışlar edərək, ölkəmizin dünyaya sürətli inteqrasiyasının qarşısını almağa cəhd göstəriblər. Hətta bir çox hallarda siyasi korrupsiyaya bulaşmış anti-Azərbaycan dairələri bu istiqamətdə çoxşaxəli işlər aparmağa səy göstərərək, eləcə də, müəyyən xarici media qurumlarını satın almaqla çirkin niyyətlərini reallaşdırmağa çalışıblar. Söz və ifadə azadlığı, media azadlığı və s. istiqamətdə həqiqəti əks etdirməyən fikirlər irəli sürüblər. Əbəs deyil ki, ölkəmizin demokratik və müstəqil quruluşuna qarayaxma kampaniyaları düzənləyən bəlli qurumlar, eyni zamanda, ölkəmizin dostları hesab edilən nüfuzlu diplomatları, siyasət adamlarını da hədəfə alırlar. Ümumiyyətlə, bu kimi əsassız iddialar son anda öz təsdiqini tapmır, habelə, qərəzli qurumların qeyri-ciddilikləri növbəti dəfə ortaya çıxmış olur. Misal üçün, elə də uzağa getməyərək, biz, özünü Avropa Şurasının anti-korrupsiya qurumu kimi təqdim edən GRECO (Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu-red.) təşkilatını, eləcə də, digər bir sıra qərəzli Qərb beynəlxalq qurumlarını eyni kontekstdən çıxış etdiklərini xatırlada bilərik.

### Prezident İlham Əliyev öz çıxışlarında korrupsiyaya qarşı mübarizədə daim yeni təşəbbüslərin irəli sürülməsi zərurətini vurğulayıb

Yeri gəlmişkən, daha bir məqam isə bu gün Azərbaycana və ölkəmizin sadiq və dəyərli dostlarına qarşı korrupsiya ittihamı ilə çıxış edən Qərb siyasi və məhkəmə dairələrini təmsil edənlərin ölkələrinin həmin burulğanda batmaları faktlarıdır. Məsələn, hələ 2014-cü ildə "Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransın iştirakçılarına müraciətində Prezident İlham Əliyev vurğulamışdı ki, korrupsiya amili Avropa ölkələrində də ciddi problemlər yaşadır: "Təəssüflər olsun ki, korrupsiya bütün dünyada, o cümlədən, Avropa ölkələrində də aktual problemlərdən biri olaraq qalır. Ona görə də, bu sahədə daim yeni təşəbbüslərin irəli sürülməsi zəruridir".

Bütün bunlar isə, bir daha belə qənaətə gəlməyə zəmin yaradır ki, Azərbaycana qarşı əsassız, böhtan xarakterli iddialarla çıxış edən və əslində, korrupsiya burulğanında batan dairələr, son anda öz yalanlarını etiraf etməyə məcbur olurlar. Çünki əllərində heç bir doğru-dürüst sübutlar olmayıb və yoxdur.

Beləliklə, bu günlərdə İtaliyanın Milan Şəhər Məhkəməsinin Azərbaycanla korrupsiya əlaqələrində ittiham olunan AŞPA-da Avropa Xalq Partiyası deputatlar qrupunun sədri olmuş Lika Volonte barədə bəraət hökmü verməsi həqiqətin hər zaman qələbə qazanmasının bariz göstəricisidir. Söz yox ki, indi ölkəmizə qarşı iddialarla çıxış edən tərəflər çox çətin və çıxılmaz durumda qalaraq, yalan və böhtan danışdıqlarını etiraf etməli olacaqlar.

Bu arada, Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov da Azərbaycanla korrupsiya əlaqələrində ittiham olunan AŞPA-da Avropa Xalq Partiyası deputatlar qrupunun sədri olmuş Luka Volonte barədə İtaliyanın Milan Məhkəməsinin bəraət qərarını şərh edərkən, vurğulayıb ki, ki, Milan Məhkəməsinin 2018-ci il 13 fevral tarixli qərarı Azərbaycan əleyhinə fəaliyyət göstərən Mütəşəkkil Cinayətkarlıq və Korrupsiyaya Qarşı Jurnalistika Layihəsi (OCCRP) adlı qeyri-şəffaf qurumun ifşasına səbəb olub.

"Qeyd edim ki, anti-Azərbaycan mərkəzlər və şəbəkələr bu kimi çoxsaylı feyk-məlumatlarla həm Azərbaycan dövlətini, həm də ölkəmizə dost münasibəti bəsləyən, onunla bağlı müsbət fikirlər bildirən tanınmış şəxsləri - ictimai-siyasi xadimləri, ekspertləri, jurnalistləri və s. hədəfə götürmək və qınaq obyektinə çevirmək istəyirdilər"-deyə qeyd edən Əli Həsənov, həmçinin, xatırladıb ki, həmin vaxt OCCRP-nin "Azərbaycanın pulyuyan maşını" adlı qondarma materialı dünya mediasında sürətlə tirajlandı, məsələ ilə ayrı-ayrı ölkələrin rəsmi instansiyaları maraqlandı: "Və orada adları keçən şəxslər, o cümlədən də, guya Azərbaycandan 2 milyon 640 min dollar almış AŞPA-da Avropa Xalq Partiyası deputatlar qrupunun sədri olmuş Luka Volonte barədə xüsusi araşdırma başladıldı".

Prezidentin köməkçisi, onu da xatırladıb ki, Azərbaycan dövləti həmin vaxtlar OCCRP -nin imzası ilə dövriyyəyə buraxılmış bu iddiaların qərəzli, əsassız, təxribat xarakteri daşıdığını və ölkəmizə qarşı bəlli dairələr tərəfindən təşkil edilmiş çirkin qarayaxma kampaniyasının tərkib hissəsi olduğunu bildirmişdi. "Göründüyü kimi, Milan Məhkəməsinin obyektiv araşdırması da bunu, bilavasitə təsdiqlədi"-deyə Əli Həsənov vurğulayıb. Onu da qeyd edək ki, ölkəmizin imicinə xələl vurmağa çalışan daxili və xarici "qüvvələr" hazırda da bənzər və heç bir məntiqə sığmayan hərəkətlərə rəvac verərək, bu vasitəylə düşmən dəyirmanına su tökməklə məşğuldurlar. Azərbaycanda mövcud olan sabitlik və demokratik mühitə qarşı çıxış edən istənilən tərəflər son anda hüquqi qiymətlərini alaraq, nə qədər yanlış yolda olduqlarını anlamağa məhkum olacaqlar. Təbii ki, bütün bu kimi kirli oyunlar cavabsız qalmayacaq. Əbəs deyil ki, cənab Əli Həsənov bununla bağlı verdiyi açıqlamasında deyib: "Azərbaycan hakimiyyəti dövlətin və onun tərəfdaşlarının imicini ləkələmək məqsədilə həyata keçirilən belə qarayaxma kampaniyasının təşkilatçıları və icraçıları haqqında kifayət qədər məlumatlıdır və yalnız Milan Məhkəməsinin qərarı ilə kifayətlənmək niyyətində deyil. Biz bu çirkin əməldə əli olanlarla bağlı müvafiq qaydada hüquqi prosedurlara başlamaq niyyətindəyik. Məsələ ilə bağlı, artıq Azərbaycanın aidiyyəti dövlət orqanlarına tapşırıqlar verilib. Hesab edirik ki, demokratiya və söz azadlığı pərdəsi altında gizlənərək beynəlxalq miqyasda ayrı-ayrı dövlətlərə, qurumlara, şəxslərə qarşı kampaniya təşkil edənlər bunun məsuliyyətini də dərk etməli və cavabdehlik daşımalıdırlar".

Nəticə olaraq, daha bir nüansı qeyd etmək yerinə düşərdi ki, ölkəmiz növbəti seçki ərəfəsindədir və bu prosesi pozmağa, qəsdən qaralamağa cəhd edənlər, necə deyərlər, iş başındadırlar. Ancaq Azərbaycan dövlətinin əsasının möhkəm təməllərə söykənməsi, o cümlədən, xalqın daim öz dövlətinin siyasətinə nəhəng dəstəyi qərəzli qüvvələrin uduzaraq geri çəkilmələri və məğlubiyyətləri ilə sonunu tapacaq. Necə ki, Milan Məhkəməsinin bəraət qərarı da bu faktoru özündə kifayət qədər ehtiva edir.

*Rövşən NURƏDDİNOĞLU*

# Azərbaycan Milli Elmlər Akademiyasında 11 aprel prezident seçkiləri ilə bağlı toplantı keçirilib



Fevralın 14-də Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) ölkəmizdə 11 aprel prezident seçkiləri ilə bağlı toplantı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun tarixi etnoqrafiya şöbəsinin müdiri, akademik Teymur Bünyadov respublikamızda elm sahəsində aparılan islahatlardan danışıb, Prezident İlham Əliyev tərəfindən alimlərə göstərilən diqqət və qayğını yüksək qiymətləndirib. Akademik vurğulayıb ki, dövlətimizin başçısının elmin inkişafı, cəmiyyətdə alimlərin nüfuzunun artırılması istiqamətində həyata keçirdiyi siyasət elmi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır. T.Bünyadov elm adamlarının qarşıdakı prezident seçkilərində İlham Əliyevi dəstəkləyəcəklərinə əminliyini ifadə edib.



Akademiyanın Fəlsəfə İnstitutunun baş elmi işçisi, AMEA-nın müxbir üzvü Könül Bünyadzadə bildirib ki, ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin əməli fəaliyyəti nəticəsində Azərbaycan yüksək inkişaf mərhələsinə çatıb. Dövlətimizin başçısının cari ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsinə dair müvafiq Sərəncamını xatırladan alim bununla Prezident İlham Əliyevin Şərqin ilk demokratik respublikası olan Azərbaycanın tarixi köklərinə sahib çıxdığını vurğulayıb. K.Bünyadzadə qeyd edib ki, respublikamızın dünya ölkələri arasında layiqli yer tutması Prezident İlham Əliyevin xalqımız və dövlətimiz naminə reallaşdırılan məqsədyönlü siyasətinin, düşünülmüş inkişaf proqramının məntiqli nəticəsidir. AMEA-nın müxbir üzvü hər kəsi qarşıdakı prezident seçkilərində ölkəmizə böyük uğurlar qazandırmış İlham Əliyevə səs verməyə çağırıb. O deyib: "İlham Əliyevə səs vermək Azərbaycanın yalnız bu gününə, sabahına deyil, keçmişinə, tarixinə sahib olmağa səs verməkdir. İlham Əliyevə səs vermək Azərbaycanın inkişaf tarixinin qırılmadan sabit şəkildə davam etməsinə səs verməkdir".

AMEA Gənc Alim və Mütəxəssislər Şurasının sədri, fizika üzrə fəlsəfə doktoru, dosent Famin Salmanov çıxışında vurğulayıb ki, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə gəncliyin intellektual potensialının tam üzə çıxması üçün əlverişli şərait yaradılıb, kreativ düşüncəli, eyni zamanda, milli dəyərlərimizə sadiq gənc alimlər nəsli formalaşıb. Dövlətimizin başçısının imzaladığı fərman və sərəncamların, həyata keçirilən proqramların gənc alim və mütəxəssislərin inkişafında, xüsusilə onların timsalında Azərbaycan elminin dünyaya inteqrasiyasında böyük rolu olub. Şura sədri vurğulayıb ki, gənclər üçün Prezident mükafatının təsis olunması, xüsusi istedad və bacarıqları ilə seçilən gənclərə "İlin gənc alimi" mükafatının verilməsi elmlə məşğul olan gəncləri yeni-yeni nailiyyətlərə təşviq edir. Gənc alim və mütəxəssislərin dövlətimizin başçısına daim güvəndiyini söyləyən F.Salmanov AMEA-da çalışan gənc alimləri, eləcə də hər bir Azərbaycan gəncini Prezident İlham Əliyevin ətrafında sıx birləşməyə səsləyib.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, AMEA-nın müxbir üzvü Tehran Mustafayev isə akademik elmin inkişaf etdirilməsində dövlətimizin başçısının misilsiz xidmətlərindən danışıb. "Prezident İlham Əliyevin AMEA-nın 60 və 70 illik yubileyləri münasibətilə imzaladığı sərəncamlar, 70 illik yubiley tədbirində dərin məzmunlu və proqram xarakterli çıxışı akademik elmin tarixində yeni era açıb. Hörmətli Prezidentimizin perspektiv vəzifələr sırasında humanitar və ictimai elmlərə məxsusi diqqəti sahə alimlərini daha da ruhlandırır", - deyə T.Mustafayev bildirib. O vurğulayıb ki, bədii ədəbiyyata və yazarlara, ədəbiyyatşünaslıq elminə dövlət qayğısı ölkəmizdə sözün qüdrətini daha da artırıb. Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan Yazıçılar Birliyinin, "Ədəbiyyat qəzeti"nin, "Azərbaycan" jurnalının, eləcə də AMEA Nizami adına Ədəbiyyat İnstitutunun yubileylərinin dövlət səviyyəsində qeyd olunması respublikamızda digər sahələrlə yanaşı, ədəbiyyata da göstərilən diqqətin bariz təzahürüdür. T.Mustafayev qeyd edib ki, qarşıdakı prezident seçkilərində Azərbaycan elminin, mədəniyyətinin, ədəbiyyatının gələcək inkişafı naminə İlham Əliyevi dəstəkləyəcək.

AMEA İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent Əlövsət Əliyev deyib ki, ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə formalaşan bilik əsaslı cəmiyyət və iqtisadiyyat Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə uğurla inkişaf etdirilib. Dövlətimizin başçısının apardığı məqsədyönlü siyasət nəticəsində ölkəmizdə informasiya texnologiyaları müasir və çoxşaxəli infrastrukturun, habelə hərtərəfli sosial-iqtisadi tərəqqinin aparıcı qüvvəsinə çevrilib. Ə.Əliyev ölkədə yüksək ixrac potensiallı, innovativ İKT sənayesinin inkişaf etdirilməsi məqsədilə İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu və AMEA Yüksək Texnologiyalar Parkının yaradıldığını diqqətə çatdırıb. Sonra AMEA-nın M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun ekoloji kataliz laboratoriyasının müdiri, kimya elmləri doktoru, professor Arif Əfəndiyev, Nəsimi adına Dilçilik İnstitutunun terminologiya şöbəsinin müdiri, professor Sayalı Sadıqova, Yüksək Texnologiyalar Parkının insan resursları və ümumi şöbəsinin müdiri Oqtay Eldarov və Botanika İnstitutunun ibtidai bitkilərin sistematikası şöbəsinin müdiri, professor Dilzarə Ağayeva da çıxış edərək dövlətimizin başçısının xalqımıza və dövlətimizə verdiyi töhfələrdən danışıb, qarşıdakı prezident seçkilərində İlham Əliyevə səs verəcəklərini bildiriblər. Sonda Nizami adına Ədəbiyyat İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri, filologiya üzrə fəlsəfə doktoru, dosent Eşqanə Babayeva prezident seçkilərində İlham Əliyevin namizədliyinin dəstəklənməsi haqqında AMEA kollektivinin bəyanatını səsləndirib.

Bəyanatda qeyd olunur ki, AMEA-nı təmsil edən elm adamları və gənc elmi nəsil ölkəmizin gələcəyinə, milli ziyalılığın və elmin daha böyük inkişafına çatmağın ancaq İlham Əliyevin rəhbərliyi ilə mümkün olacağına inanır. Azərbaycanın elm adamları 2018-ci il aprelin 11-də keçiriləcək prezident seçkilərində yekdilliklə ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyevə səs verəcəklər.

# YAP Qobustan rayon təşkilatının növbəti şura iclası keçirilib



*Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatının növbəti şura iclası keçirilib. Geniş tərkibdə keçirilən iclasda şura üzvləri, idarə heyətinin üzvləri, QHT, gənclər birliyinin, qadınlar şurasının üzvləri və ərazi ilk partiya təşkilatının sədrləri iştirak ediblər. İclasda çıxış edən YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev 8 fevral 2018- ci il tarixində keçirilmiş Yeni Azərbaycan Partiyasının VI Qurultayında qəbul edilmiş qərarlar, növbəti prezident seçkilərinə hazırlıq və Yeni Azərbaycan Partiyası tərəfindən partiyanın Sədri, ölkə başçısı Cənab İlham Əliyevin namizədliyinin irəli sürülməsi haqqında qərarla bağlı ətraflı məlumat verib.*

Natiq qeyd edib ki, partiyanın bu qərarı, əslində, ümumxalq mövqeyinin ifadəsidir: "Çünki Prezident İlham Əliyevin uğurlu fəaliyyəti, birmənalı olaraq, xalqımız tərəfindən dəstəklənir. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Prezident İlham Əliyev dövlət başçısı kimi Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasi kursu müasir dövrün çağırışlarına uyğun daha da inkişaf etdirərək, uğurla həyata keçirir: "Bu illər ərzində ölkəmiz həm iqtisadi, həm siyasi, həm də beynəlxalq sahələrdə böyük nailiyyətlər qazanıb. Azərbaycanda aparılan davamlı və uzunmüddətli iqtisadi islahatlar nəticəsində, ölkəmiz iqtisadi inkişaf sürətinə görə dünyanın lider dövlətlərilə bir sırada dayanır. Əlbəttə ki, Cənab Prezidentin həyata keçirdiyi siyasətin uğurlarını xalqımız görür və yüksək qiymətləndirir. Ona görə də ümumxalq partiyası olan YAP özünün VI Qurultayında Cənab İlham Əliyevin prezidentliyinə namizədliyini rəsmi şəkildə irəli sürməklə xalqın mövqeyini ifadə etdi. Əminəm ki, aprelin 11-də azad və demokratik prezident seçkiləri nəticəsində, növbəti dəfə Cənab İlham Əliyevin parlaq qələbəsini qeyd edəcəyik". Sonra 10 fevral 2018- ci ildə rayon təşkilatı sədrlərinin ümumrespublika müşavirəsində prezident seçkilərilə əlaqədar YAP rayon təşkilatları qarşısında qoyulmuş vəzifə və tapşırıqlar barədə ətraflı məlumat verilib. Bildirilib ki, 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının 11 nəfərdən ibarət Qobustan rayon şöbəsi yaradılıb. Qərargahın texniki təchizatı yaxşılaşdırılıb, normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılıb. İclasda şura üzvlərindən Məharət Əkbərov çıxış edərək qeyd edib ki, rayonda 11 aprel 2018-ci ildə növbəti prezident seçkisinin keçirilməsi məqsədi ilə yaradılmış qərargah, artıq bir neçə gündür ki, fəaliyyətə başlayıb. Seçki məntəqələri 11 aprel 2018-ci ildə keçiriləcək növbəti prezident seçkilərinə hazırlıqla əlaqədar rayonda bütün seçki məntəqələri fəaliyyətə başlayıb, seçici siyahıları dəqiqləşdirilib və məntəqələrin texniki təchizatı təmin olunub. Natiq çıxışında növbəti prezident seçkilərində rayon ictimaiyyətinin fəal iştirakına və layiqli namizədə səs verəcəklərinə inandığını qeyd edib.

YAP Qobustan rayon təşkilatı idarə heyətinin üzvü Adil Məmmədov çıxışında qeyd edib ki, Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biri olmaqla yanaşı, xalq-iqtidar birliyi onun uğurlu inkişafını müəyyən edir: "Bu siyasət ictimaiyyət tərəfindən dəstəklənir və xalq da görür ki, bu siyasət real və konkret nəticələrə gətirib çıxarır. Bütün sahələr üzrə dövlət proqramları həyata keçirilir. Mühüm islahatlar reallaşdırılıb, ölkəmizin hərtərəfli inkişafı üçün genişmiqyaslı tədbirlər gerçəkləşib. Eyni zamanda, humanitar, mədəniyyət, idman və digər sahələrdə də ciddi nailiyyətlər qazanılıb. Bu nailiyyətlərin əsasında, Heydər Əliyev ideyaları, Prezident İlham Əliyevin uğurlu siyasəti dayanır. Ona görə də xalqımız, Cənab Prezidentin həyata keçirdiyi siyasəti, birmənalı olaraq, dəstəklədiyini və müdafiə etdiyini bəyan edir".

Şura iclasının sonunda bir daha Qobustan rayonunda da 11 aprel 2018- ci ildə keçiriləcək prezident seçkilərinə hazırlığın yüksək səviyyədə keçiriləcəyinə əminlik ifadə olunub.

**Rövşən RƏSULOV**



# Suraxanıda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yaranmasının 6-cı ildönümü qeyd edilib

Suraxanı rayon icra hakimiyyətinin və Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Bakı şəhəri, Suraxanı rayon idarəsinin birgə təşkilatçılığı ilə rayon icra hakimiyyətinin konfrans zalında Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yaranmasının 6-cı ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbir iştirakçıları, öncə Ulu Öndərin Suraxanı rayonu Heydər Əliyev Parkında ucalan abidəsini ziyarət ediblər.

Tədbiri giriş sözü ilə açan Suraxanı rayon icra hakimiyyəti başçısı İlqar Abbasov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 13 fevral 2012-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Hərbi Komissarlığı ləğv edilmiş və onun əsasında Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yaradılmışdır: "Dövlət Xidməti öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən, digər icra hakimiyyəti orqanları, yerli özünüdarə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. "Qarşımızda duran əsas məsələ müstəqil respublikamızın suverenliyinin, ərazi bütövlüyünün qorunmasıdır. Hər şey Vətənin müdafiəsindən başlayır. Vətəni sevmək, onu düşməndən qorumaq, lazım gəldikdə, onun üçün canını belə fəda etmək hər bir vətəndaşımız üçün müqəddəs bir vəzifədir. Vətənini sevən hər bir azərbaycanlı daim onun müdafiəsinə hazır olmalıdır. Azərbaycan gəncliyinin tərkib hissəsi olan rayonumuzun gəncləri də həmişə ölkəmizdə gedən proseslərin içərisində olmuş və Vətənə sədaqətli olduqlarını nümayiş etdirmişlər".

Tədbirdə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Bakı şəhəri Suraxanı rayon idarə rəisinin müavini-Səfərbərlik Hazırlığı və Səfərbərlik şöbəsinin rəisi Vüsal Həsənov, rayon Polis İdarəsinin rəisi Namiq Həsənov, rayon Gənclər və İdman İdarəsinin rəisi Amil Bağırov, Əmək, Müharibə və Silahlı Qüvvələr Veteranlar təşkilatının Suraxanı rayon Veteranlar Şurasının sədri Eldar Rüstəmov, rayon Ağsaqqallar Şurası Nəzarət-təftiş komissiyasının sədri Müseyib Bağırov çıxış edib.

Tədbirin sonunda Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Bakı şəhəri Suraxanı rayon idarəsinin bir qrup əməkdaşı qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsində fərqləndiyinə və gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsində fəal iştirakına görə, rayon icra hakimiyyəti başçısının Fəxri Fərmanı ilə təltif edilib.

**ZÜMRÜD**

# "Tariximizin öyrənilməsi daim diqqət mərkəzindədir"

Xızı rayon Mikayıl Müşfiq adına Giləzi qəsəbə tam orta məktəbində YAP Xızı rayon təşkilatı gənclər birliyinin Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibətilə konfrans keçirilmişdir. Konfransı giriş sözü ilə açan YAP Xızı rayon təşkilatının gənclər birliyinin üzvü İman Ağayev müstəqil Azərbaycanın varisi olan xalq cümuhuriyyətinin mövcudluğu, demokratik inkişaf yolunda göstərdiyi fəaliyyəti ətrafında geniş və ətraflı məruzə ilə çıxış etdi. Bildirdi ki, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı imzaladığı Sərəncam dövlətçilik tariximizə verilən yüksək önəmin və dəyərin nəticəsidir: "Birmənalı tərzdə, demək olar ki, şanlı və qürurverici tariximizə yüksək dəyərin verilməsi, dövlətçilik tariximizin öyrənilməsi, araşdırılması və gələcək nəsillərə çatdırılması Ulu Öndər Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin yürütdüyü siyasətin əsas qayəsini təşkil edir. Bu sırada Prezidentin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubuleyinin keçirilməsi barədə Sərəncamı xüsusi qeyd edilməlidir".



Məruzə ətrafında Səbirə Tağıyeva, Vüsal Hicranoğlu və YAP Xızı rayon təşkilatının şura üzvü Oktay Abdullayev çıxış edərək, tariximizin öyrənilməsi və təbliğinin daim diqqət mərkəzində olduğunu bildirdilər. Çıxışlardan sonra bir neçə gəncə YAP Xızı rayon təşkilatının Fəxri Fərmanı təqdim edildi.

**NƏZAKƏT**

# Vətən xaini Orduxan Teymurxanın gizli yazışması üzə çıxdı!

## *Bu satqın həm də anasının ölümünə bais olan ünsürdür*

***Dəfələrlə sübuta yetirilib ki, adlarını "siyasi mühacir", yaxud "dissident" qoyaraq, Azərbaycan dövlətçiliyi əleyhinə erməni lobbisinin təlimatları əsasında fəaliyyət göstərən şəxslər, Avropada fəaliyyət göstərən bir sıra qərəzli təşkilatlarla da eyni müstəvidə əməkdaşlıq edirlər. O cümlədən, bu gün bir sıra xarici media qurumları da mövcuddur ki, onlar qeyri-ciddi informasiyalar şəklində qarşılarına məqsəd kimi, Azərbaycana qarşı kirli oyunlarda iştirak etməyi qoyublar. "Azadlıq Radiosu", "BBC" (Azərbaycan dilində), "Amerikanın səsi", "Turan TV", "Meydan TV" və s. media qurumları öz qərəzlərini reallaşdırmaq üçün ölkəmizə qarşı başlatdıqları şər-böhtan kampaniyaları çərçivəsində informasiya müharibəsi aparırlar.***



Xaricdən idarə edilən, eləcə də, erməni lobbisinin maliyyə dəstəyi ilə fəaliyyət göstərən bir sıra sosial şəbəkə səhifələrində real və həqiqətə söykənən deyil, əksinə, siyasi mübarizə kontekstindən kənar şəkildə kirli oyunlar oynayan şəxslər bu vasitəylə, yəni xəyanətkarlıq və satqınçılıqları ilə maddi maraqlarını dövlətçilik maraqlarından üstün tuturlar. Söz yox ki, sağlam düşüncəli insanlar, reallıqlara doğru-dürüst qiymət verməyi bacaran tərəflər bu cür çirkin kampaniyaları qınayır, rədd edirlər. Özlərini "müxalifət liderləri" adlandıran kəslər həmin çirkin oyunlara dəstək göstərir, bununla Azərbaycan xalqına, dövlətçilik maraqlarına qarşı çıxdıqlarını açıq-aşkar nümayiş etdirirlər.

Misal üçün, son vaxtlar dağıdıcı müxalifətin "başbilənləri", "Milli Şura", AXCP, Müsavat və s. partiyaların təmsilçiləri istər xarici dairələr tərəfindən idarə edilən sosial şəbəkələrdəki canlı yayımlar, həmçinin, yuxarıda adları çəkilən qərəzli media qurumları vasitəsiylə ciddi siyasi mübarizə aparmaq əzmində olmadıqlarını növbəti dəfə sübut ediblər. Çünki ciddi siyasi mübarizə aparmaq üçün ciddi arqumentlərlə çıxış etmək gərəkdir. Halbuki sözlərinin bitdiyi yerdə söyüşlərə və təhqirlərə yol verən siyasi təlxəklər, məhz bu kimi yollarla öz zəifliklərini və cəmiyyətə yararsızlıqlarını gizlətməyə çalışırlar.

Bu arada erməni lobbisinin maliyyələşdirdiyi xarici dairələrə nökərçilik edən iki şəxs - Orduxan Teymurxan və Məhəmməd Mirzəlini ifşa edən növbəti sosial şəbəkə yazışması ictimailəşdirilib. Məqalədəki fotoda həmin yazışmasının foto-sübutu da var. Bəlli olub ki, onlar öz aralarında, bilavasitə Avropa ölkələrində fəaliyyət göstərən anti-Azərbaycan şəbəkəsinə xidmətdə dayanıblar.

### "Onun heç elementar ali təhsili yoxdur, savadı olan insan öz davranışına nəzarət edər"

Yeri gəlmişkən, Orduxan Teymurxanın ailəsi hələ ötən ilin əvvəllərində ondan imtina etmişdi. Bu baxımdan, bəzi xatırlatmaları etmək də yerinə düşərdi. Belə ki, ailəsi O.Teymurxanın əməllərindən utandıqlarını deyiblər. Onun bacısı oğlu Elnur Əliyev bildirib ki, 10 ildən artıqdır ki, Azərbaycanda yaşamayan dayısı ilə onları heç nə birləşdirmir: "Ona dayı demək istəmirəm, anamın bioloji qardaşıdır. Sadəcə, iş elə gətirib ki, anamla eyni valideynin övladı olub. Onun yazdıqlarından xəcalət çəkirik. Biz bu hakimiyyəti də, dövləti də sevirik, Prezidentin siyasətini dəstəkləyirik. İstəyirik, hamı bilsin ki, bu adamın bizə heç bir aidiyyatı yoxdur. Onun kimi insanların yazdıqlarını lənətləyirik və belə qohumdan imtina edirik".

Onun sözlərinə görə, O.Teymurxan böhtan dolu yazılarını buradakı qohumlarının yaxşı yaşayışını gözü götürmədiyinə görə yazır: "Dəfələrlə oturub müzakirə edirik ki, bizdən nə istəyir, bizi niyə incidir?! Görünür, o, qohumlarının burada yaşayışına paxıllıq edir. Baxır ki, biz burada normal yaşayırıq, o, Hollandiyada işsiz-gücsüz qalıb, qəsdən belə edir. Belə adamdan uzaq olmaq istəyirik. Sonuncu dəfə nənəm rəhmətə gedəndə, 2011-ci ildə Azərbaycana gəlib. Onunla mənim heç ünsiyyətim olmayıb. Onun barəsində heç evdə də danışmırıq. Mədəniyyətə, şərəf və ləyaqətə sığmayan yazılarından əvvəl də onunla ünsiyyətim yox idi. Onun heç elementar ali təhsili yoxdur, savadı olan insan öz davranışına nəzarət edər. Allah ona lənət eləsin! Səsimi eşidən qurumlar bizim aramızdakı bağlılığı saymasınlar".

### "Orduxanla heç bir əlaqəm yoxdur, ondan imtina edirəm"

O.Teymurxanın bacısı Zəhra Əliyeva isə bildirib ki, dəfələrlə digər bacı və qardaşları ilə birlikdə qardaşı ilə danışaraq, ondan həqiqətəuyğun olmayan yazılarından əl çəkməsini istəyiblər: "Ona yalvarmışıq ki, dövlətçilik əleyhinə bu cür yalan yazmasın. O isə deyir ki, yazacağam. Onun fikirləri ilə də heç vaxt razı olmamışam. Bizim heç bir şeydən narazılığımız yoxdur. Çox yaxşı yaşayırıq. Mən bu hakimiyyəti dəstəkləyirəm. Orduxanla da heç bir əlaqəm yoxdur. Ondan imtina edirəm".

### "Orduxanın ucbatından anası infarkt keçirərək, dünyasını dəyişdi"

Z.Əliyevanın həyat yoldaşı Məhəbbət Əliyev isə qaynının bu əməllərinin ucbatından anasının infarkt keçirərək, dünyasının dəyişdiyini bildirib: "Mən oğlumun, həyat yoldaşımın dediklərilə razıyam. Onunla bizim heç bir əlaqəmiz yoxdur, mən heç telefon nömrəsini də bilmirəm. 45 il fəhləliklə ailəmi dolandırmışam. Bu hakimiyyətdən narazılığımız yoxdur, pis yaşamırıq. Ölkəmiz də gün-gündən firavanlaşır. Vaxt var idi ki, çörək üçün növbəyə dayanırdıq. Bu ölkənin nəyindən narazılığımız ola bilər ki? Ancaq üzdəniraq qaynımdan narazılığım var. Elə anası da onun ucbatından infarkt keçirib öldü".

Z.Əliyevanın digər oğlu Elnar Əliyev də bütün qohumların O.Teymurxana münasibətinin çox pis olduğunu bildirir: "İş o yerə çatıb ki, hər kəs ondan uzaq olmaq və onunla bağlı heç nə eşitmək istəmir. Biz bu adamdan bezmişik, qurtulmaq istəyirik. Biz bu adamdan imtina edirik. O, bizi saymır, adam yerinə qoymur. O, bizim üçün maraqsız adamdır, biz onun etdiklərindən utanırıq. Normal cəmiyyətdə yaşayırıq, o, nə istəyir, biz bilmirik. Heç yəqin ki, özü də bilmir. Bizim bu ölkədə tək problemimiz odur".

Beləliklə, bir halda ki, adını "insan" qoyan kəs öz ailəsinə qarşı bu cür davranırsa, anasını ölüm həddinə çatdırırsa, demək ki, belə ünsürdən ən ağır və dəhşətli pislikləri gözləmək təəccüb doğurmamalıdır. Sadəcə, zamanı, vaxtı çatanda bu şərəf və ləyaqətdən uzaq olan toplum mütləq öz əməllərinə görə cavab verməli olacaq - istər bu, istərsə də digər dünyada..!

***Rövşən RƏSULOV***

# Gömrük orqanından gizlədilmiş 486 ampula inyeksiya üçün su aşkarlanıb

486 ampula inyeksiya üçün su aşkarlanıb. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Balakən Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olmuş məlumat əsasında idarənin "Mazımçay" gömrük postunda Gürcüstandan Azərbaycana gələn Azərbaycan Respublikasının vətəndaşının idarə etdiyi "Mercedes -Benz E220D" markalı nəqliyyat vasitəsinə gömrük nəzarəti həyata keçirilib. Baxış zamanı avtomobilin arxa oturacağının altında 2 ədəd sellofan torbada gömrük orqanından gizlədilmiş, ümumilikdə 486 ampula üzərində "Voda dlə inceküii 2 ml" markalanma yazısı olan inyeksiya üçün su aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.





## Ya adam olun, ya da adam olun!!!

**AFƏT**

***Müxalifət daxilində heç bir fəaliyyət göstərməmələri ciddi dəyişikliklərin olmasının labüdlüyündən xəbər verir. Ələlxüsus da, dağıdıcı müxalifətin partiya sədrləri postlarını başqalarına həvalə etməsələr, düşərgə daxilində hər hansı "yeniliyin" olacağına ümid etmək qeyri-mümkündür. Radikalların ağılsızcasına hərəkət edən partiya sədrlərinin düzgün olmayan siyasət aparmalarının nəticəsidir ki, onlar keçirilən heç bir seçkidə uğur əldə edə bilməyiblər.***

Əgər gecə-gündüz "demokratiya" deyib bar-bar bağırırlarsa, onda düşərgə daxilində partiya sədrlərindən hansısa birinin dəyişməsinin şahidi olsaq, onda biz də onlara demokratiyaya uyğun addım atılmış oldu deyə bilərik. Niyə? Niyəsi odur ki, nəinki hər çıxışlarında, hətta bütün günü sosial şəbəkələrdə ancaq demokratiyadan dəm vururlar və özlərini demokrat kimi xalqa sırımağa çalışırlar. Nədi-nədi bu ağıldankəmlər, guya demokratiya uğrunda mübarizə aparırlar. Yaxşı, deyirsiz demokratiq, ölkədə demokratiya boğulur, ay nə bilim nə? Bəs onda bunlardan soruşmaq lazımdır ki, 30 ilə yaxın bir müddətdə bir iş görüb, hansısa dəyişiklik etmirsizsə, nəyə əsasən sədr kimi qalmaqdasız? Sizi inandırım ki, bu yaşda meşədə ağac qalmayıb. Elə buna görə də, sözün əsl mənasında, bu partiyalarda demokratiyadan danışmağa dəyməz. Əgər bu dağıdıcılar içərisində həqiqi demokratiyadan söhbət gedirsə və normal şəkildə partiyada hər hansı yenilikçi işlər aparılarsa, onda gərək vaxtaşırı partiyalarda sədrlər də dəyişilə. Demək olar ki, bütün dünya ölkələrində belə bir qayda var. Təsəvvür edin ki, demokratik ölkələrində bu üsuldan istifadə edilir. Hansısa partiya sədri istənilən seçkidə uğur qazana bilmirsə, o, partiya sədrliyindən istefa verir. Əgər oturub-durub demokratiyadan danışırlarsa, onda gərək bizim də müxalifətdə olanlar bu üsuldan istifadə etmiş olsunlar. Bir sözlə, dağıdıcı müxalifət sədrlərinin yerlərini başqalarına vermələri, bəlkə də sözügedən düşərgədə hansısa dəyişikliklərin olacağına səbəb ola bilər. Bəlkə onda həqiqi rəqabət aparmağa dəyər.

Partiya sədrlərinin ölkədə keçirilən seçkilərdə heç bir uğur əldə bilməmələrinin əsas səbəbi də onların düzgün olmayan siyasət yürütmələridir. Ona görə də, radikal müxalifət partiya sədrləri ağıllarına gələn siyasəti aparırlar, heç kimlə hesablaşmadan öz başına istədikləri səhv qərarı verirlər, amma sonda səhvlərini billə-billə bunu etiraf etmirlər və bu partiya daxilində narazılıqlara, parçalanmalara gətirib çıxarır.

Heç kəsə sirr deyil ki, dağıdıcı müxalifət partiyaları xaricdə olan maraqlı qüvvələr tərəfindən maliyyələşdirilir. Onu da qeyd etmək lazımdır ki, respublika qanunlarına görə, ölkədə fəaliyyət göstərən partiyalar xaricdən maliyyələşə bilməzlər və maliyyələşməyəcəklər də. Bax, elə bu da onların sonunu gətirəcək.

# Müxalifət ümidsizlik girdabındadır

***Prezident seçkisinin vaxtının aprel ayına təyin edilməsi elə bil ki, müxalifət düşərgəsinin dərin yuxudan ayılmasına səbəb oldu. Sanki müxalifətçilər seçkinin bu il keçiriləcəyini, 2018-ci ilin seçki ili olduğunu indi başa düşüblər. Bəlli olur ki, radikallar hazırlıq haqqında düşünməyin vacibliyini indi anlayıblar və hazırlıqsız olduqlarını etiraf etməklə, fəaliyyətsizliklərini də etiraf edirlər. Dünya təcrübəsinə nəzər salsaq, görərik ki, sivil dövlətlərdə, sivil fəaliyyət sərgiləyən müxalifət qüvvələri yalnız seçki ili deyil, bütün dövr ərzində fəaliyyət göstərir və alternativ plan və proqramlarla ictimaiyyətin diqqətini cəlb etməyə çalışır. Daha doğrusu, müxalifət dövlətçiliyə, ictimaiyyətə xidmət edəcək təkliflərlə çıxış edərək ictimai dəstəyi, nəticədə, seçicilərin səsini qazanmağa ümid edir. Bir sözlə, sivil qaydada hakimiyyət uğrunda mübarizə aparan müxalifət qüvvələrinin fəaliyyəti ictimai dəstəyi, seçicinin səsini qazanmağa hesablanır və bu fəaliyyət yalnız seçki ili deyil, bütün dövr ərzində davam edir.***



### Radikal müxalifətin fəaliyyəti heç bir qaydaya və normalara sığışmır

Azərbaycanda isə vəziyyət tamamilə fərqlidir desək, fikrimizi tam şəkildə ifadə edə bilmərik. Ölkədə anormal şəkildə mübarizə aparan radikal müxalifətin fəaliyyəti heç bir qaydaya və normalara sığışmır. Əvvəla, radikallar mübarizəni nədənsə, yalnız seçki ili aparmağı düşünür və seçkidən-seçkiyə qədər olan 5 il müddətdə, ölkəmizə qarşı düşmən mövqedə olan xarici qüvvələrin dəyirmanına su tökməklərini nəzərə almasaq, heç bir əməli işlə məşğul olmurlar. Elə bil, qış yuxusuna getmiş kimi, bir də seçkilərin keçirilməsinə az bir müddət qalmış oyanır və aqressiv fəaliyyətə başlayırlar. Bu fəaliyyət ona görə aqressiv dəyərləndirilir ki, mübarizəni yalnız qeyri-etik normalar müstəvisində aparırlar. Çağırışlarını belə etik normalara sığmayan təhqirlərlə, təhdidlərlə edir, söyüşlə müşayiət olunan ifadələrdən belə çəkinmirlər. Seçki gününə qədər olan vaxt daraldıqca, aqressiyaları daha kəskin şəkildə büruzə verməyə başlayır ki, bu da zamanında heç bir dəyərli, məqsədyönlü fəaliyyət göstərməməyin və fəaliyyətsizliyin təzahürdür.

Müxalifətin anormal fəaliyyəti həm də, ondan ibarətdir ki, radikallar mübarizəni hələ də küçə və meydanlarda görür və az sayda insanların toplaşmasından nə isə gözləyir. Möcüzələrə inanan uşaq misalında, elə zənn edirlər ki, meydanda olan beş-on nəfər sanki bu müxalifət nümayəndələrinə hakimiyyəti təmin edəcək. Ötən əsrin 90-cı illərində mübarizəni hansı şəkildə görürdülərsə, indi də eyni şəkildə başa düşür, piket, yaxud piket səviyyəsində olan mitinqləri mübarizə metodu və fəaliyyət hesab edirlər. İnkişaf etmiş cəmiyyətdə belə bir mübarizə metodu, yaxud fəaliyyət mexanizmi heç bir müsbət nəticə vəd etmir və uğursuzluğa zəmin yaradır. Meydanda az sayda olan insanlar, onların səsləndirdiyi şuarlar heç də ictimai fikir kimi dəyərləndirilə bilməz və buna ictimai dəstək demək olmaz. Bu gün ictimai dəstəkdən məhrum olan müxalifətçilər bunun səbəbini anlamasalar da, bu məhrumiyyətdən çox narahatdırlar.

Digər tərəfdən, əməli fəaliyyət sərgiləyə bilməyən, real mübarizə apara bilməyənlər, virtual aləmi özləri üçün mübarizə meydanı hesab edirlər. Ən böyük yanlışlıqlar isə, ondan ibarətdir ki, real olmayan bu müstəvidə də fəaliyyət düzgün qurulmayıb. Həm ona görə ki, sosial şəbəkələrdə müxalifətçilər yenə də dövlət maraqlarını, milli maraqları, xalqın mənafeyini deyil, şəxsi mənafeyi üstün hesab edirlər. Təkcə ayrı-ayrı siyasi partiyalar deyil, hətta liderləri, funksionerləri belə öz siyasi dividendi üçün çalışır. Partiya, qurum rəhbərləri maddi dəstək qazanmaq uğrunda mübarizə aparır və bu yolda erməni əsillilərlə, lobbilərlə, əleyhimizdə olan təşkilatlarla əməkdaşlıqdan belə çəkinmirlər. Onların Azərbaycan əleyhinə, ölkədə sabitliyin pozulması, dövlətin imicinin aşağı salınması məqsədilə verdiyi tapşırıqları xəyanətkarcasına yerinə yetirmələri, əlbəttə ki, ikrah doğurmaya bilməz.

### Əcnəbi ağaları "Milli Şura"dan imtina edib, digər müxalifət qurumları da maraq dairəsində deyil

Müxalifət düşərgəsində təmsil olunan partiya və qurumların seçkilərin aprel ayına təyin edilməsi ilə bağlı narahatçılığının əsl səbəbi, əslində, elə əcnəbi ağaları ilə bazarlaşması və bu bazarlaşma üçün zamanın daralmasıdır. İctimai dəstəyi olmayan radikalların seçkidən gözləntiləri heç də hakimiyyət deyil və nəzərə alsaq ki, seçki ərəfəsində xəyanətkar mövqe sərgiləmələri müqabilində, əcnəbi ağalarının vəd etdiyi maddi vəsaitlərə göz dikiblər, hər seçki ili müxalifət üçün bəxşiş ili hesab oluna bilər. Alacaqları qrantlara görə, seçkiyə qədərki müddət isə müxalifətin bayram ərəfəsi sayılır. Seçkiyə qədər olan bu müddətin, yəni müxalifətin bayram ərəfəsinin qısaldığını düşündükdə, radikalların təşvişi başadüşüləndir. Başadüşülən odur ki, Azərbaycan əleyhinə fəaliyyət göstərən, ölkəmizi gözü götürməyən qüvvələrdən, təşkilatlardan iğtişaşlar yaratmaq, dezinformasiyalar yaymaq, məkrli niyyətlərini həyata keçirmək müqabilində alacaqları pulların mənimsənilməsi üçün oktyabr ayına qədər olan müddət qısalmaqla qrantların miqdarı da azalacaq və bir sözlə, müxalifət maddi itkilərlə üzləşəcək. Məsələnin kökündə, məhz maddiyyat dayanır və istər Əli Kərimli olsun, istər İsa Qəmbər olsun, istərsə də digərləri, yalnız mənimsəmə strategiyası göz qabağındadır.

Müxalifət düşərgəsi üçün daha qorxulu məqam isə, ondan ibarətdir ki, seçkilərin keçirilməsinə qədərki müddətdə və sonra ağalarının tapşırıqlarını yerinə yetirməkdə çarəsiz və imkansız olduqları təqdirdə, qrantlar tamamilə kəsilə bilər və onsuz da, acınacaqlı durum bir az da pisləşə bilər. Hadisələrin gedişi, onu göstərir ki, müxalifətçilər bu mənada, haqlı imiş və sən demə, qoxmağa əsasları da var. "Milli Şura"nın poçtalyonu hesab olunan Cəmil Həsənlinin bu həftə Avropaya səfəri nəzərdə tutulurdu və bu səfərin təcili təxirə salınması müxalifətçilərin şübhələrinin doğru olduğunu, qorxularına əsas olduğunu təsdiqlədi. Bəlli oldu ki, özlərini ana müxalifət adlandırmağa cəhd edən "Milli Şura"nın vəziyyəti acınacaqlıdır və ölkəmizə qarşı məkrli niyyətli əcnəbi ağaları şuradan imtina edib. Ən azından, "şura" və onun funksionerləri, yaxud digər müxalifət qurumları, onların liderləri artıq maraq dairəsində deyil. Çünki məkrli niyyətlərini həyata keçirmək istəyən, ölkəmizə qarşı düşmən mövqedə olanlar başa düşürlər ki, Azərbaycan müxalifəti, həmişə olduğu kimi, heç bir qüvvəyə, həmçinin, dəstəyə malik deyil.

Belə bir müxalifətə arxalanmağın, sərmayə ayırmağın mənasızlığı aydın oldu. Amma müxalifətin bundan sonrakı durumu heç də aydın olmadı, daha doğrusu, çox qaranlıq oldu. Nəzərə alsaq ki, xalq arasında nüfuzu olmayan, ictimai dəstəyə malik olmayan müxalifətin yeganə ümid yeri əcnəbi ağaları idi, tam əminliklə demək olar ki, radikallar ümidsizlik girdabındadır, heç kimə və heç nəyə bundan sonra ümidi yoxdur.

***İnam HACIYEV***

# İsa Qəmbərə danılmaz faktı xatırlatma

## *Sabiq Müsavat başqanı hələ 2016-cı ildə növbədənkənar seçkilərin keçirilməsi barədə mülahizələr yürüdürmüş*

***Müsavat partiyasının sabiq başqanı İsa Qəmbərin, necə deyərlər, dünən danışdığını bu gün unutması artıq onun siyasi arenada "xəyallarını gerçəkləşdirə bilməmiş qoca" imicində formalaşdığını, hətta siyasətdən getmək zamanı olduğunu növbəti dəfə sübuta yetirir. Məsələ ondadır ki, hələ 2016-cı ilin fevralında İ.Qəmbərin, məhz 2018-ci ildə keçiriləcək prezident seçkilərində iştirakı üçün nəzərdə tutulmuş "Milli-Strateji Düşüncə Mərkəzi" ("MSDM") adlı qurum yaratması, həmin quruma tərəfdarlarını cəlb etməsi o zamanlar sabiq başqanın qərarlı olduğunu kifayət qədər təsdiqləyirdi. Hətta "MSDM", təsis olunar-olunmaz, onun "Böhrandan İmkana Yol Xəritəsi" adlı təklif sənədi də ictimailəşdirilərək, müxalifət mətbuatında dərc edilmişdi.***

### Çox yəqin ki, istər İsa Qəmbər, istərsə də "MSDM"də təmsil olunmuş müxalifət partiya sədrləri də elə də uzaqda olmayan iki il öncəni - 2016-cı ili unutmazlar!

Adıçəkilən qurumda təmsil olunan müxalif siyasilər bu sənədi tərifləyərək, onun "ciddiliyi" barədə mülahizələrlə çıxış edir, üstəlik, "təhlillərini" apararaq, "Yol xəritəsi"nin guya (!) Azərbaycanın sosial-iqtisadi və ictimai-siyasi böhrandan çıxması üçün 8 strateji istiqaməti əhatə etdiyini iddia olaraq irəli sürürdülər. Çox yəqin ki, istər İ.Qəmbər, istərsə də "MSDM"də təmsil olunmuş müxalifət partiya sədrləri də, elə də uzaqda olmayan iki il öncəni - 2016-cı ili unutmazlar! Yox, əgər unudublarsa, bu zaman bəzi xatırlatmaları edə bilərik... Misal üçün, "xəritədə" ölkə konstitusiyasının yeni versiyasının hazırlanması üzrə komissiyanın yaradılması və konstitusiya referendumunun keçirilməsi təklif edilir.



Eləcə də, 2016-cı ilin payızında növbədənkənar parlament seçkilərinin, 2017-ci ildə vaxtından əvvəl prezident seçkilərinin keçirilməsi (!) təklif olunur.

Həmçinin, İ.Qəmbər onu da qeyd edib ki, "Yol xəritəsi" ideyasının reallaşması 2018-ci ildə qeyd ediləcək Azərbaycan Demokratik Respublikasının yüzilliyi, yenilənmiş ölkənin demokratik məcrada inkişafı üçün real imkanlar yaradır.

### Çətin və çıxılmaz suallardır, deyilmi?

Bu zaman növbəti suallar meydana çıxır - İ.Qəmbər, əgər bütün bunlar, məhz sizin təklifləriniz olubsa, onda seçkilərə qatılmamaq, daha dəqiq desək, boykota qoşulmağa hansı adı vermək olar? Çətin və çıxılmaz suallardır, deyilmi?

Ümumiyyətlə, boykot amilini əllərində bayraq edənlər, seçkilərə qatılmaq qərarı vermiş müxalifət partiyalarının təmsilçilərini ittiham edənlər "qeyri-legitimlikdən" dəm vururlarsa, avantüraçılıqla məşğul olurlarsa, belə suallar yaranır - 2008-ci ildə keçirilən seçkini öz aləminzdə guya boykot etdiniz. Nə baş verdi? Legitimlik olmadımı? Yaxud 10 ildir öz təbirinizcə, "legitim saymadığınız" seçkinin nəticələri ilə, qanunlarla, qərarlarla yaşamırsınızmı, fəaliyyət göstərmirsinizmi? Ümumiyyətlə, "Legitim hesab etmədiyiniz" qərarlarla 2010-cu il, 2013-cü il, 2015-ci il seçkilərinə, məhz sizlər qatılmadınızmı?

Məsələ aydındır, buna siyasi mazoxizm deyirlər. Adlarını müxalifət "liderləri" qoyanlar, sadəcə, ətraflarında qalan beş-on nəfəri siyasi dividend qazanmaq naminə aldatmaqdan zövq alırlar.

***Rövşən NURƏDDİNOĞLU***

***P.S.** Yaxşı olardı ki, İsa Qəmbər bu suallara cavab versin!*

# Azadlıq, hüquq və mənəviyyatın qarşılıqlı münasibətləri

***Azərbaycanda aparılan hüquqi islahatlar, bütövlükdə, hüquq sisteminin təkmilləşdirilməsi müstəsna əhəmiyyətə malikdir. Həmin proses intensivləşdikcə, hüquq normalarının mənəvi mahiyyəti və tərbiyəvi təsiri də çoxalır. Milli dövlətçilik şəraitində həm hüquq, həm də mənəviyyat azadlıqla sıx qarşılıqlı əlaqədədir. Hüququn mənəviliyinin artması və onun azadlığa təsiri də, postsovet məkanında yaranan ölkələrin yaşadığı transformasiya prosesləri şəraitində xeyli çətinliklərlə üzləşməli olur. Bu, onunla şərtlənir ki, totalitar rejimdən açıq cəmiyyətə keçid dövründə meydana çıxan neqativ hallar, bəzən azadlığın humanist ideyasını, yüksək mənəviyyatı, vicdanlılığı və ədaləti zərbə altına qoyur.***

Azərbaycanda xalqımızın Şərq ənənələri ilə sıx bağlı olması üzündən, insanların fəaliyyət və davranışlarında mənəvi əxlaqi dəyərlər öz müsbət təsirini və rolunu oynamaqda davam edir. Bununla birlikdə, qapalı cəmiyyətdən açıq ictimai münasibətlər sisteminə keçidin çətinlikləri, insanların azadlıq mühitinə ləng alışması, azadlığın ictimai şüurda tam dolğunluğu ilə qərarlaşmamasının törətdiyi mənfi nəticələr ölkəmizdən də yan keçmir. Bütövlükdə götürdükdə, ölkəmizdə dərin humanist məna daşıyan hüquq sistemində, o cümlədən də, hüquqi normalarda əxlaqilik durmadan artır. Həm də, qeyd olunmalıdır ki, o, sadəcə, bir məqam və cəhət kimi özünü göstərmir. O, getdikcə daha artıq dərəcədə hüququn daxili məzmununa nüfuz edir, onun standartlarında və normativ-hüquqi aktlarda geniş əks olunur. Ölkəmizdə həyata keçirilən hüquqi islahatlar bu prosesin intensiv getməsi üçün lazım olan şəraiti təmin edir.

Fəlsəfə elmləri doktoru Qərlb Allahverdiyev yazır: "Aparılmış təhlil sübut edir ki, hüququn əxlaqi məzmunla tamamlanması, insanların azadlığının sabitliyinə və inkişafına etibarlı təminat yaradır. Nəzərdə tutmaq lazımdır ki, müasir dövrdə baş verən hərtərəfli qloballaşma prosesləri ölkələrin və xalqların ictimai həyatın bütün əsas göstəriciləri üzrə inteqrasiyasını şərtləndirir. Bu yaxınlaşma, həm də hüquq və azadlıqların mənalandırılmasında ümumi cəhətlərin artması ilə müşahidə olunur. Bununla əlaqədar olaraq, hüququn əxlaqiliyi, onun məzmununa əxlaqın dərindən nüfuz etməsi meyili, milli və regional hədlərlə məhdudlaşmır, getdikdə daha çox beynəlxalq miqyas alır. Bu proses, insan hüquqları və azadlıqlarını tənzim edən beynəlxalq sənədlərdə geniş yer aldıqca, bəşəriyyəti həqiqi azadlıq idealına daha çox yaxınlaşdırır."

Azadlığın müasir cəmiyyətdə əldə etdiyi çox mühüm yeni keyfiyyət, hüquqla mənəviyyatın qarşılıqlı sürətdə bir-birini tamamlaması prinsipində aydın ifadə olunur. Bu prinsipin əhəmiyyəti durmadan artmaqdadır. Belə ki, o, azadlığın mövcudluğu və inkişafını təmin edən çoxsaylı amillər sırasında müstəsna dərəcədə böyük rol oynayır. Bununla belə, həmin məsələ sosial-fəlsəfi səpgidə, demək olar ki, araşdırılmamışdır.

Hüququn əsas anlayışları qanuni və qanunsuz, hüquqi cəhətdən ixtiyari olan və ixtiyari olmayan və sairdirsə, əxlaq başlıca olaraq, xeyir və şər, ədalət, vicdan, şərəf və başqa qiymətləndirici anlayışlara əsaslanır. Sonra, hüquqi normalar ilə müqayisədə əxlaqın tətbiqi dairəsi daha genişdir. Belə ki, sonuncu, həm də dostluq, yoldaşlıq, sevgi və sair münasibətləri də tənzimləyir.

Əxlaq, insanların davranış və fəaliyyətlərini əsas etibarilə ədalət, xeyirxahlıq idealları, daxildən gələn mənəvi tələblər üzərində qurmaq məqsədi güdür. Hüquq isə, insanların davranış və fəaliyyətlərinin xarici tənzimləyicisidir, onları dövlət ha-kimiyyətinin dəstək verdiyi qanunlarda və digər normativ aktlarda məcburi surətdə reqlamentləşdirir. Bundan əlavə, əxlaq insanların mənəvi həyatında qərarlaşmış, məcburi xarici obyektivləşməni tələb etməyən xalis şüur sahəsidir. Hüquq isə, institusional tənzimləyici olmaqla, obyektiv reallıqdan çıxış edir, bu və ya digər fərdin yanaşmasından asılı olmayan ümumi dayanıqlı ehkam kimi özünü göstərir. Nəhayət, əxlaqın məzmunu, bilavasitə daxili öhdəlik ilə, insanın öz davranışına görə mənəvi məsuliyyəti və cavabdehliyi ilə əlaqəlidir. Hüquq isə, ilk növbədə, rəsmi qanun dili ilə danışır, əsas diqqəti fərdlərin hüquqları üzərində cəmləşdirir. Subyektlərin statusunun müəyyən edilməsi və təmin olunması, hüquqi vasitələrin və onların fəaliyyətinin azadlıq hüquqlarına uyğun olmasını əsas götürür.

Hüquq ilə əxlaqın nisbəti məsələsi öz mahiyyəti etibarilə mövcud olan ilə olmalı olanın, bərabərlik və azadlığın münasibətlərini əks etdirən əbədi fəlsəfi problemdir. Buna görə də, onları bir-birindən ayrılıqda götürmək absurddur. Bu məqam onunla şərtlənir ki, hər bir dövlət hakimiyyətinin təməlində onun hüquqi və əxlaqi səpgilərinin vəhdəti durur. Əxlaqi dəyərlərin hüquqi məzmunla tamamlanması, bir qayda olaraq, dövlətin konstitusiyasının-da, digər qanunvericilik aktlarında ifadə olunur, bu cəhət ona ən əsas dəyər xarakteri verir. Dövlətin konsti-tusyon xarakterli hüquqi meyarlarının formalaşması, dolayısı ilə olsa da, bəşəriyyətin uzun əsrlər boyu işləyib- hazırladığı etik (xeyir, ədalət və s.) prinsiplər əsasında baş verir. Bu mənada, "hər bir cəmiyyətdə əxlaq normalarının məkanı, hüquq qanunlarının sahəsi ilə sıx surətdə çulğalaşır. Görünür, bunun nəticəsidir ki, insanın istənilən hərəkəti əxlaqi mühakiməyə məruz qalır, lakin heç də bütün hərəkətlərə hüquqi qiymət vermək olmur" .

Fəlsəfə elmləri doktoru Qərlb Allahverdiyevin fikrincə, hətta hüquqi dövlətdə qanunun aliliyi təmin edildikdə belə, əxlaq və mənəviyyat qanunvericilik sahəsində tam sıradan çıxmayacaqdır. Əksinə, qanunun aliliyi o deməkdir ki, Əsas Qanundan tutmuş, konkret qanunvericilik aktlarına qədər bütün hüquq normaları, cəmiyyətin ümumi əxlaqi bəraətini qazanmış olsun. Yalnız bu halda insanlar qanunlara tabe olmağı könüllü surətdə qəbul edirlər.

Hüquqi normaların başqa bir mühüm cəhəti də onların əxlaqla üzvü vəhdətdə olmasını təmin edir. Söhbət onların insanların sosial varlığının bütün əsas tərəflərində birgəyaşayış qaydaları, psixoloji durumu və ümumi ənənələri ilə ayrılmaz əlaqədə olmasından gedir. Ümumilikdə, dövlət hakimiyyətinin hüquqi normalarda ifadə olunan iradəsinin əhali tərəfindən qəbul edilməsi və müsbət qiymətləndirilməsi, ona əxlaqi cəhətdən haqq qazandırır, bu isə, onun leğitimliyi deməkdir .

Buna görə də, insan hüquqlarının və azadlığının qorunması haqqında beynəlxalq bəyannamələrin əksəriyyətində göstərilir ki, "dövlət öz xalqının tale ümumiliyini möhkəmləndirən, insanın hüquq və azadlıqlarını, vətəndaş sülhünü və razılığını təmin edən qeyri-ideoloji təsisat olmalıdır". Hüquqi şüurun bütün əsas tərkib hissələri özündə əxlaqi məzmun daşıyır. Onlardan aşağıdakıları qeyd etmək olar: hamının azadlığının ayrıca bir fərdin azadlığı üçün təminat olmasına inam; hüquqi ünsiyyətdə və fəaliyyətdə bərabər tərəfdaşlar kimi iştirak edən subyektlərin ləyaqətinə hörmət; insanın onun üzərinə düşən öhdəliklərin yerinə yetirilməsinin vacibliyini başa düşməsi, bu baxımdan, yüksək məsuliyyət daşıdığını anlaması; qəbul edilmiş öhdəliklərin, əldə olunmuş saziş və razılaşmanın şərtlərinə, verilmiş sözə əməl edilməsinin cəmiyyətdə normal fəaliyyət göstərməyin ümumi şərti olduğunun anlaşılması və sair . Kant əxlaqi davranışın düzgünlüyünü müəyyən etməyin çətin olduğunu vurğulayaraq, bundan çıxış yolunu hüquqi borc anlayışını tətbiq etməkdə görürdü. Onun fikrincə, əsas məqsədi insanların hüquqlarına hörmət etmək olan bu borc, insanlar üçün mütləq imperativ xarakteri daşıyan borcdur və vətəndaş cəmiyyətində ən üstün əxlaqdır.

Nəzərdə tutulmalıdır ki, əgər mövcud hüquq sistemi cəmiyyətin mənəvi əxlaqi dəstəyinə arxalanmırsa, onun sabitliyini təmin etmək çox çətin olur. Bununla əlaqədar V.Muşinskiy haqlı olaraq yazır: "Hüquq ilə əxlaq arasında sıx əlaqə mövcuddur və əxlaqda hüquq mənəvi dayaq tapır. Həm hüquq, həm də əxlaq normalarının ölçüsü və meyarı ədalətə yönəlir və səmtləşir".

Deyilənlərdən aydın olur ki, hüquqi və əxlaqi şüur bir-birindən ayrılmazdır. Belə ki, hüquq özündə həm də əxlaqi mənanı ifadə edir. Məsələyə bu kontekstdə yanaşdıqda, hüququ, müvafiq qanunlarda təsbit olunmuş "minimum əxlaqilik" kimi ifadə etmək olar. O, vətəndaşların başlıca olaraq, bu "minimum fəziləti" obyektiv reallaşdırmağı və "qəbahətin müəyyən hissəsini" kənarlaşdırmağı tələb edir. Hüquq bunları həyata keçirərkən, məcburiyyətə əsaslanır. Başqa sözlə deyilsə, hüquq fəzilətin və qayda-qanunun və qəbahətin təzahürünə imkan verməyən hədd daxilində reallaşmasını məcburi tələb etmək deməkdir. Əxlaqi şüura xas olan aşağıdakı keyfiyyətlər, onun hüquq ilə müqayisədə iradə azadlığına və azad seçimə daha yaxın olmasını şərtləndirir: əxlaq mədəniyyət aləminə məxsus olub, insanın sosial təbiətini daha dərin əks etdirir və fərdlər arasında ictimai münasibətlərin əsl mahiyyətini ifadə edir. Digər tərəfdən, o, şəxsiyyəti başqa insanlarla birgəyaşayış halında yaşamaq, onlar ilə ahəngdar münasibətlər yaratmağı bacarmaq nöqteyi-nəzərindən səciyyələndirir. Əxlaqi şüur şəxsiyyətin inkişafı dərəcəsini, ictimai mövcudat olan insanın mükəmməlliyini ifadə edən xeyirxahlıqlar məcmusu kimi qiymətləndirir. Sonra, əxlaq insanın daxili determinasiyasının elə bir xüsusi və yüksək səviyyəsidir ki, o öz məzmununda real həyat tərzinə, dəyərlərə, insanlıq motivlərinə olan münasibəti bildirir. Həm də göstərilməlidir ki, əxlaq insanlar arasında universal əlaqələri müəyyən edən obyektiv, ümummiqyaslı və vacib normalar məcmusu olmaqla, ideal oriyentirlər və davranış etalonları formasında çıxış edir. Nəhayət, əxlaq xeyirxah şəxs ilə onun yerinə yetirməli olduğu normaların vəhdətini, hər bir fərdin digər insanlarla və bəşəriyyətlə ümumi cəhətlərini ifadə edir. O, fərdlərin elə bir keyfiyyətidir ki, bunun sayəsində insanlar digər həmvətənləri ilə həmrəylik birliyinə daxil olur .

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Qarın piylərinin əridilməsi

Qarın piylərinin əridilməsi normal görünmək istəyən hər kəsin arzusudur və şişman qarın bir sıra xəstəliklərin mənbəyidir. Bu barədə AZƏRTAC-ın müxbiri ilə söhbət edən həkim-fitoterapevt Fizuli Hüseynov deyib: "Piy hüceyrələrinin bölünməsi iki formada olur: ya hüceyrələr iki, sonra dörd yerə bölünməklə artıb çoxalır, ya da hüceyrələr şişərək böyüyürlər. Ayaqda və qolda olan piy hüceyrələri iki yerə bölünərək artan hüceyrələrdir. Həmin hüceyrələr dayaq-hərəkət sisteminin fəaliyyətində iştirak edir və əzələlərə yardım göstərir, qarın piyləri isə şişərək böyüyür. Onlar çox təhlükəlidir və artıq yük kimi əziyyət verir, çünki həmin piylər qarındakı bütün orqanları sıxır və onun normal işləməsinə mane olur".

Bəs niyə qarın qabağa çıxır və onun böyüməməsi üçün nə etmək lazımdır? Həkim-fitoterapevt həmin sualın cavabında deyib: "Qarın piyləri qarın əzələləri tonusdan düşəndə irəli çıxmağa başlayır. Onun qarşısını almaq üçün, ilk növbədə, hər gün press hərəkəti etmək lazımdır. Bunu etmək üçün əvvəlcə arxası üstə uzanaraq divara və ya çarpayıya bağlanmış ipin köməyi ilə qarın press hərəkəti edilir. Mütəmadi hərəkət edəndə ipə ehtiyac qalmır, hərəkətlər gündə 3 dəfə və hər birində 20 dəfə olmaqla yerinə yetirilir. Qarın hüceyrələri şişib böyüyəndə kip korsetdən istifadə etmək olar".

Bəs bu sahədə hansı xalq təbabəti reseptlərindən istifadə etmək olar? Xalq təbabəti bilicisi bunun üçün bir neçə resept məsləhət görüb: "100 qram acı bibər qəhvəüyüdəndə toz halına salınır, yarım litr zeytun yağı ilə qarışdırılıb qarına çəkilir və üstündən korsetlə bağlanılır. Dərini yandırmaması üçün əvvəlcə az yağ çəkilir və korset səhərdən axşama qədər çıxarılmır, yatmazdan əvvəl çıxarılır və dəri yuyulur. Hərəkət edilərkən fəal həyat tərzi yaşamaq və gündə 5 kilometrdən artıq gəzmək lazımdır. Prosedur zamanı həftədə bir dəfə qarın diametri ölçülür.

Bağırsaq mənşəli köpmə də ola bilər. Bağırsaqların hərəki fəallığı azalanda sürətli addımlarla gəzmək lazımdır. Gündə 5 kilometr hərəkət bağırsaqları işləməyə məcbur edir və tərkibində efirli birləşmələr olan dərman bitkiləri də bağırsaqların hərəki fəaliyyətini artırır.

Başqa bir reseptdən də istifadə etmək olar. Hərəsindən 100 qram cirə, razyana, qaraqınıq, pişikotu və kəcəvər bitkiləri qarışdırılır, qarışıqdan 2 xörək qaşığı 3 stəkan suda dəmlənir, hər dəfə yeməkdən əvvəl 1 stəkan içilir.

Bəzi hallarda ağır yük götürəndə mədə-bağırsaq müsariqəsi sallana bilər. Bu zaman qarın nahiyəsi aşağıdan yuxarıya doğru adi günəbaxan yağı ilə masaj edilir və möhkəm bağlanır. Prosedur hər həftə gündə bir dəfə yerinə yetirilir".


## ELAN



**Qasımov Cavanşir Famil oğlu istehsalatda iş zamanı ağır bədən xəsarəti almış və sağlamlığının 80 faizini itirmişdir. Qəlbində və ürəyində mərhəmət hissi olan imkanlı insanlardan ona yardım edilməsi xahiş olunur.**



**HESAB N-si**

Kapital Bank
Valyuta AZN
Benefisların Bankı:
Kapital Bank ASC Mərkəz filialı
Filialların Kodu: 200026
VÖEN 9900003611
SWIFT kod: ALLBAZ2X
Möhür hesab AZ37NAVZ01350100000000001944
Benefisların adı: QASIMOVA ELMURA BULİS QIZI
Benefisların hesabı: AZ62ALLV41010019440317032102
VÖEN:

**Ünvan:** **Bakı şəhəri Nəsimi rayonu, Fuzuli küç.71**
**Tel:** **(012) 493 1882**
**E-mail:** **Bakı@kapitalbank.az**


## BŞH rəsmisi: "Könüllüləri sürpriz gözləyir"



"Oktyabrın 31-dən 2018 Formula -1 Azərbaycan Qran Prisinin könüllülərinin qeydiyyatına başladıq və ilk 13 gün ərzində 12 mindən çox gənc qeydiyyatdan keçdi. Buna görə qeydiyyatı tez bağlamalı olduq və dekabr ayından müsahibələrə başladıq". Bunu SİA-ya açıqlamasında Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin (BŞH) könüllülər üzrə koordinatoru Tural Hümbətov deyib. O vurğulayıb ki, könüllülərlə müsahibələrdə qeydiyyatdan keçən hər kəsə iştirak şansı yaradılıb: "Müsahibələrdən keçənlər yanvar ayı və fevral ayının 13-dək olan ümumi təlimlərdə iştirak ediblər. Burada iştirak edən bütün gənclər isə növbəti həftədən başlaycaq rol təliminə dəvət alacaqlar. Ümumilikdə Azərbaycan Qran Qrisində 3 min könüllü iştirak şansı qazanacaq. 12 min könüllünün arasından seçim prosesi gedir. Yarışda iştirak üçün yaxşıların yaxşıları seçiləcək".

T.Hümbətovun sözlərinə görə, ötən il olduğu kimi, bu il də könüllüləri sürpriz gözləyir: "Ötən il 5 könüllümüz İtaliyada keçirilən Qran Pridə iştirak etmişdi. Bu il isə 5 könüllümüz mayda keçiriləcək Monako Qran Prisində iştirak şansı qazanacaq. Sözügedən yarışa gedəcək könüllülərin seçim prosesi artıq başalayıb. Belə ki, könüllülər onlar üçün təşkil edilən seminarlarda, danışıq klublarında, təlimlərdə özlərini maksimal şəkildə aktiv göstərməli və Azərbaycan Qran Prisində iştirak edəcək 3 min könüllülnün arasında olmalıdırlar. Onlar yarış müddətində də fərqlənməyi bacarmalı və imtahana vəsiqə qazanmalıdırlar. İmtahanda isə ən yüksək bal toplamış 5 nəfər Monakoya səfərə vəsiqə qazanacaq". BŞH rəsmisi əlavə edib ki, könüllülərin təlimlər azərbaycanlı mütəxəssislər tərəfindən aparılır. O bildirib ki, təlimlilərin arasında ötən illərdə yarışlarda yüksək səviyyədə iştirak etmiş təcrübəli könüllər də var.

## Sərbəst güləş üzrə Azərbaycan millisinin dünya kubokundakı rəqibləri müəyyənləşib




Aprelin 7-8-də ABŞ-ın Ayova şəhərində sərbəst güləş üzrə dünya kuboku yarışları keçiriləcək. Fevralın 14-də Dünya Güləş Birliyinin mənzil qərargahında yarışın püşkatma mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, yığma komandamız Kuba, Qazaxıstan və Rusiya idmançıları ilə "B" qrupunda mübarizə aparacaq. ABŞ, İran, Gürcüstan və Yaponiya komandaları isə "A" qrupunda yarışacaq. Yığmamız aprelin 7-də Kuba və Qazaxıstan, aprelin 8-də isə Rusiya ilə qrup görüşlərində qarşılaşacaq. Qeyd edək ki, ötən il keçirilən analoji yarışı sərbəst güləşçilərimiz 3-cü yerdə başa vurublar. Buna qədər isə sərbəst güləş yığmamız iki dəfə - 2004 və 2009-cu illərdə dünya kubokunun sahibi olub.

## İquain Çempionlar Liqası tarixində ən sürətli dubla imza atıb

"Yuventus" futbol klubunun hücumçusu Qonsalo İquain Çempionlar Liqasının səkkizdəbir final mərhələsinin birinci oyununda "Tottenhem"lə qarşılaşmada (2:0, birinci hissə) dubl ilə yadda qalıb. AZƏRTAC xəbər verir ki, bunun üçün argentinalı forvarda start fitindən sonra cəmi 8 dəqiqə 7 saniyə tələb olunub. Bu, Çempionlar Liqası tarixində ən sürətli dubldur. Bundan əvvəlki rekord "İnter"in sabiq hücumçusu Xulio Krusa məxsus idi. O, 2006/2007-ci il mövsümündə "Spartak"la oyunda dubla 8 dəqiqə 30 saniyə ərzində nail olub.

## "Mançester Siti"dən darmadağın, "Yuventus" Turində şok yaşadı!

Futbol üzrə UEFA Çempionlar Liqasında 1/8 final mərhələsinə start verilib. İlk oyun günündə iki görüş keçirilib. Əsas diqqətlər Turinə yönəlib. Burada ÇL-in son finalçısı "Yuventus" "Tottenhem"i qəbul edib. Meydan sahibləri matça fəal başlayıblar. İlk 9 dəqiqədə "Yuve" rəqib qapısından 2 cavabsız qol keçirsə də, sonda qələbəyə həsrət qalıb. Günün digər qarşılaşmasında isə "Bazel" İngiltərə Premyer Liqasının lideri olan "Mançester Siti" ilə üz-üzə gəlib. Rəqibinə heç bir şans tanımayan Qvardiolanın komandası cavab görüşünü formallığa çevirib - 4:0.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**